QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 061 (5781) **6 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır!"

*"Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir"*



Səh 2

**Belçika jurnalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş məqalə dərc edib**



2

**YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb**



7

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dövlətimizin mövqeyi qəti və birmənalıdır**



6

**""SƏS"in tarixi mövqeyini qorxmadan, çəkinmədən davam etdirəcəyik"**



6

**Əvəz Zeynallı, gəl, "SƏS" qəzetindən üzr istə!**



9

**Ermənistan "Metsamor" AES üçün aldığı krediti Rusiyaya qaytara bilmir!**



14

14

**İlqar Məmmədov "liderləri" ittiham etdi**



10

**113 yaşlı "Molla Nəsrəddin"**



16

**Mixael Şumaxerin oğlu: "Bakıda Formula 2 sükanı arxasına qayıtmağımı gözləyirəm"**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 aprel 2019-cu il

# İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır!"

*"Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir"*



***"Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır"***



Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Bakı şəhərinin ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı Sərəncama əsasən çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi təşkilat funksiyaları Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna həvalə edilib. 2018-ci ilin mart ayında başlanan tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yeni yaşayış kompleksində məktəb və uşaq bağçası, o cümlədən digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

**Ardı Səh. 3**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Asif Hüseynovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Asif Həbib oğlu Hüseynov Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

* * *

Prezident İlham Əliyevin Sərəncamı ilə Asif Həbib oğlu Hüseynov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyevin Sərəncamı ilə Novruz Nəcəf oğlu Novruzov Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Novruz Nəcəf oğlu Novruzov Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

* * *

Prezident İlham Əliyevin Sərəncamı ilə Nizaməddin Məhəmməd oğlu Quliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

* * *

Prezidentin digər Sərəncamları ilə Məhərrəm Böyükağa oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

# İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır!"

## "Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir"

Əvvəli-Səh-2

Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Qeyd olunub ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

Yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, buradakı mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

Sonra Prezident İlham Əliyev uşaq bağçasında yaradılan şəraitlə tanış oldu. Burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 280 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Bağçanın yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 58 min 203 ailə və ya 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, ondan da 54 min 203 ailə, yaxud 272 min nəfər son 15 ilin payına düşür. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.



*"Təkcə iki il ərzində təqribən 11 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50 minə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcək"*



Daha sonra Şuşa rayon 7 nömrəli tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, bu təhsil ocağı 560 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.

Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, o köçkünlər ki, uzun illər ərzində yataqxanalarda, pansionatlarda, digər uyğunlaşdırılmış yerlərdə yaşamışlar. Onların həyatında yeni dövr başlayır. Burada yaradılan şərait ən yüksək standartlara cavab verir:

"Gözəl, yaraşıqlı binalar, geniş otaqlar, mənzillər. Bu, bizim siyasətimizi göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir. Bu siyasəti Ulu Öndər həyata keçirirdi. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk şəhərcik salınmışdı. O vaxt Dövlət Neft Fondundan ilk ödəmələr məhz bu məqsədlər üçün istifadə olunmuşdur. O vaxtdan bu günə qədər 100-dən çox köçkün qəsəbəsi, şəhərciyi salınıb və köçkünlərin böyük hissəsi bu qəsəbələrdə yaşayır. Biz Bakıda, Sumqayıtda, Abşeron rayonunda, digər şəhər və rayonlarımızda məcburi köçkünlər üçün gözəl şərait yaradırıq, bu proses davam etdiriləcək. Bildiyiniz kimi, sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. O vaxta qədər köçkünlərimizin böyük əksəriyyəti çadırlarda yaşayırdı. Təkcə keçən il məcburi köçkünlər üçün 5 mindən çox mənzil inşa edilmişdir. Onlar bu mənzillərə köçürülürlər. Bu il isə bizim planlarımızda minimum 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. Artıq bu prosesə start verilib və əminəm ki, ilin sonuna qədər biz buna nail olacağıq. Təkcə iki il ərzində təqribən 11 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50 minə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcək. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Bildiyiniz kimi, Dövlət Neft Fondundan uzun illərdir ki, bu məqsədlər üçün vəsait ayrılır. Dövlət Neft Fondunun yaradılması da tarixi hadisə idi. Çünki bu Fond vasitəsilə həm büdcəmizə dəstək göstərilir, həm sosial məsələlərin həlli təşkil edilir, ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir və ilk növbədə, məcburi köçkünlərin problemləri həll olunur. Əgər bizim bu imkanımız olmasaydı, əlbəttə ki, köçkünlərə bu həcmdə kömək etmək mümkün olmazdı. Məhz uğurlu neft strategiyamızın hesabına formalaşmış Dövlət Neft Fondu bu məqsədlər üçün böyük vəsait ayırıb və bundan sonda da ayıracaqdır. Bu, bizim siyasətimizdir. Biz bütün məcburi köçkünlərin problemlərini həll etməliyik və edəcəyik.

Ardı Səh. 4

# İlham Əliyev: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır!”

## “Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir”




Əvvəli-Səh-3

Onu da bildirməliyəm ki, salınan qəsəbələr arasında elələri var ki, vaxtilə işğal olunmuş və işğaldan azad edilmiş torpaqlarda salınıb. O cümlədən Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb, hansı ki, o ərazilər işğal altında idi. Cocuq Mərcanlıda 150 evdən ibarət gözəl qəsəbə salınıb, müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Yəni, bu yerlərə həyat qayıdıb.

Əlbəttə ki, bizim əsas məqsədimiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə ardıcıl işlər aparılır. Bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri, mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında öz həllini tapmalıdır. Azərbaycan bu istiqamətdə bütün lazımi işləri görür. Həm tarixi ədalət bizim tərəfimizdədir, Dağlıq Qarabağ və digər işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır, həm də beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, iqtisadi və hərbi potensial ölkəmizi daha da gücləndirir. Biz bundan sonra da bu məsələ ilə bağlı ardıcıl siyasət aparacağıq. Bir daha demək istəyirəm ki, bu

### *“Biz bütün məcburi köçkünlərin problemlərini həll etməliyik və edəcəyik”*

münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

O ki qaldı, məcburi köçkünlərin problemlərinin həllinə, bu problemlər kompleks şəkildə öz həllini tapır. Binalar tikilir, yeni şəhərciklər salınır, eyni zamanda, məcburi köçkünlərin sosial şəraiti yaxşılaşdırılır, onlara dövlət tərəfindən verilən sosial dəstək artır. Bu yaxınlarda çox böyük sosial paket təsdiqləndi. O cümlədən məcburi köçkünlərin müavinətləri 50 faiz artmışdır. Özü də biz bu məbləği bir neçə dəfə artırmışıq. Bu gün hər bir köçkünə verilən müavinət 50 faiz artıb. Bu, bizim köçkünlərə olan diqqətimizi əks etdirir. Digər sosial layihələr icra edilib. Bildiyiniz kimi, biz indi çox ciddi iqtisadi islahatlar aparırıq. Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldirik. Beləliklə, keçən il prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək.”

Dövlət başçısı qeyd edib ki, Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır, icra etdiyimiz böyük layihələr, o cümlədən Cənub Qaz Dəhlizi layihəsi yaxın gələcəkdə bizə əlavə gəlirlər gətirəcək:

“Bu gəlirlər ədalətli şəkildə bölüşdürüləcək, bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşların sosial rifahına yönələcəkdir. Beləliklə, bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir. Bu gün Azərbaycanda hər sahədə çox böyük quruculuq işləri aparılır - iqtisadi sahədə, sosial sahədə. Xəstəxanalar, məktəblər tikilir, yeni sosial obyektlər istifadəyə verilir, yollar salınır, köçkünlər üçün belə gözəl şərait yaradılır. Quruculuq, abadlıq, inkişaf bu gün Azərbaycanı fərqləndirən amillərdir.”

Daha sonra Şuşa şəhərindən məcburi köçkün Günəş Hüseynova, Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Şuşa rayon 7 nömrəli tam orta məktəbin direktoru Elçin Dadaşov çıxış edərək, yaradılan şəraitə görə Prezident İlham Əliyevə təşəkkür ediblər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək qeyd edib ki, aprel döyüşləri bizim şanlı tariximizdir, parlaq zəfərimizdir. Azərbaycan əsgəri, Azərbaycan dövləti göstərdi ki, heç vaxt işğalla barışmayacaq:

“Biz məsələni diplomatik yollarla, siyasi yollarla həll etmək istəyirik. Ancaq, eyni zamanda, biz hərbi gücə də malikik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşləri onu göstərdi ki, biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edə bilərik. Onu göstərdi ki, Azərbaycan Ordusu böyük gücə malikdir. Onu göstərdi ki, bu, bizim torpağımızdır. Cocuq Mərcanlıya uzun fasilədən sonra qayıdan vətəndaşlar, o cümlədən yeniyetmələr, uşaqlar, - o insanlar ki, heç vaxt orada olmayıblar, onlar qayıdıblar oraya, - onu göstərir ki, hər bir köçkün torpaqlar işğaldan azad olunandan sonra öz doğma torpağına qayıdacaqdır.

Eyni zamanda, siz də qeyd etdiyiniz kimi, biz bütün dünyaya göstərməliyik, haqlı olaraq, göstəririk, sübut edirik ki, Qarabağ bizim tarixi torpağımızdır. Mehriban xanımın bu sahədəki fəaliyyətini siz yüksək qiymətləndirirsiniz. Mən də yüksək qiymətləndirirəm. Çünki onun fəaliyyəti nəticəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarında bu məsələ ilə bağlı təqdimatlar, simpoziumlar, konfranslar, dəyirmi masalar keçirilmişdir. Bizim tarixi, mədəni irsimiz olan muğam sənəti, tar və digər milli sərvətlərimiz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. Bütün bunlarla bağlı sərgilər, təqdimatlar keçirilir, yəni, biz Qarabağ həqiqətlərini dünyaya çatdırırıq. Çünki vaxtilə, xüsusilə müstəqilliyimizin ilk illərində erməni lobbisi tərəfindən belə bir rəy formalaşdırılmağa cəhd edilirdi ki, guya Qarabağ onların torpağıdır. Bizim imkanımız yox idi, lobbimiz yox idi, bizim xaricə çıxışımız çox məhdud idi. Amma bu gün biz bütün dünyaya həqiqətləri çatdırırıq və tarixi sənədlər əsasında, maddi-mədəni irs əsasında sübut edirik ki, bu, bizim tarixi diyarımızdır. Mən bildirəndə ki, tarixi ədalət bizim tərəfimizdədir, məhz bunu nəzərdə tuturdum. Qədim xəritələrə baxanda görürük ki, Dağlıq Qarabağda və ətraf bölgələrdə bütün toponimlər Azərbaycan mənşəlidir. Tarixi ədalət, beynəlxalq hüquq, bütün beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da bizim böyük diplomatik və siyasi uğurumuzdur. Əlbəttə ki, iqtisadi potensialımız, hərbi gücümüz də mühüm amildir.”

# Belçika jurnalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş məqalə dərc edib

***Brüsseldə nəşr olunan və geniş beynəlxalq oxucu auditoriyasına malik "Diplomatic World" jurnalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş "Müasir Azərbaycan tarixinin böyük qadını" (bax: http://diplomatic-world.com/?p=3204) sərlövhəli məqalə dərc edilib. Məqalənin müəllifi "EurAsiaAz" beynəlxalq ekspert klubunun direktoru, Vzglyad.az xəbər agentliyinin baş redaktoru Seymur Məmmədovdur.***



ARTICLE
AZERBAIJAN'S FIRST LADY MEHRIBAN ALIYEVA

Great woman of modern history of Azerbaijan
By Seymur Mammadov

Recently, on February 21, 2019, it was two years since the appointment of the First Lady of Azerbaijan, the head of Heydar Aliyev Foundation, the chairperson of Azerbaijani Culture Friends Foundation, the President of Azerbaijani Gymnastics Federation, and the goodwill ambassador of UNESCO and ISESCO Mehriban Aliyeva to the position of First Vice President of the country, whose name is associated with a significant number of important events, international sports events and revolutionary commitments to improve the well-being of citizens. Azerbaijani President Ilham Aliyev signed a decree on this appointment on February 21, 2017, and from that date a new countdown began — the time of major changes in the social and political life of Azerbaijan. President Ilham Aliyev and First Vice

AZƏRTAC-a istinadən məqalənin tərcüməsini təqdim edirik.

2019-cu il fevralın 21-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezident vəzifəsinə təyin edilməsinin ikinci ildönümü tamam olub. Ölkədə keçirilmiş çoxsaylı mühüm tədbirlərin, həmçinin beynəlxalq idman tədbirlərinin təşkili, vətəndaşların həyat tərzinin yaxşılaşdırılması istiqamətində atılmış bir sıra inqilabi addımlar məhz onun adı ilə bağlıdır.

Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Birinci vitse-prezident təyin edilib. Həmin dövrdən ölkə tarixində yeni səhifə açılıb. Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsi ilə Azərbaycanın sosial-siyasi həyatında ciddi dəyişikliklər başlayıb. Bu gün dövlət başçısı İlham Əliyevlə birgə, Birinci vitse-prezident Mehriban Əliyeva da ölkənin tərəqqisi üçün çalışır, ciddi səylər göstərir. Həyata keçirilən əsaslı islahatlar nəticəsində əhalinin rifahı yüksəlir, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır.

Daxili islahatlarla yanaşı, xaricdə Azərbaycanın nüfuzunun artması üçün də ciddi addımlar atılır. Bu, dövlətin xarici siyasətində prioritetdir. Konkret olaraq, Azərbaycan tarixinin, mədəniyyətinin, musiqisinin və incəsənətinin xaricdə tanıdılmasında ən böyük rol məhz Mehriban Əliyevaya məxsusdur. Son illər beynəlxalq arenada Azərbaycanın mədəniyyət sahəsində nüfuzu həqiqətən də çox artıb. Məhz Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycanın zəngin tarixi və mədəniyyətinin Rusiya, İtaliya, Fransa, Çin daxil olmaqla, müxtəlif ölkələrdə tanıdılması üçün uğurlu siyasət aparılır. Ötən ilin dekabrında Pekində təşkil olunmuş Azərbaycan-Çin dostluq konserti buna bariz nümunə sayıla bilər. Belə tədbirlərin təşkilinin təməlində Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında 2017-ci ilin noyabrında imzalanmış dostluq memorandumu dayanır.

Azərbaycanın Birinci vitse-prezidenti ötən il Fransa və İtaliyada səfərdə olub, orada rəsmi görüşlər keçirib. Məhz Mehriban Əliyevanın fəaliyyəti sayəsində bu gün İtaliya və Fransa ictimaiyyəti Azərbaycan mədəniyyətinin zəngin tarixi haqqında daha geniş məlumata malikdir. Onun İtaliyaya 2018-ci ilin sentyabrında etdiyi səfər zamanı Romada "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfrans da təşkil olunmuşdu. Ötən ilin mayında isə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Şərqin birinci dünyəvi parlamentli respublikası: dəyərlər və irs" adlı elmi konfrans keçirilib.

Mehriban Əliyeva Azərbaycan tarixi və mədəniyyətinin xaricdə tanıdılması istiqamətində göstərdiyi səylərlə yanaşı, Avropa ölkələrinin və digər dövlətlərin tarixi və mədəni irsinin qorunması işinə də diqqət ayırır. Məsələn, Heydər Əliyev Fondu indiyədək müxtəlif ölkələrdə abidələrin, tarixi binaların və muzeylərin bərpasına yardım göstərib. Fond Strasburqda Kafedral Kilsəsinin, Versaldakı bəzi obyektlərin, həmçinin Müqəddəs Marçellinio və Pietro katakombalarının, Romadakı Kapitolini Muzeyinin "Filosoflar zalı"nın və digər tarixi abidələrin bərpasını maliyyələşdirib. Onun bu təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən təkcə müsəlman qadınının deyil, həm də müsəlman dünyasının xristianlığın müqəddəs abidələrinin qorunub saxlanmasına töhfəsi kimi qəbul edilir.

Mehriban Əliyeva təkcə müsəlman və xristian aləminə aid tarixi-mədəni abidələrin müdafiəçisi deyil. O, ümumiyyətlə xeyirxahlığa xüsusi önəm verir. Mehriban Əliyevanı insanların, xüsusilə köməyə və qayğıya ehtiyacı olan uşaqların yanında tez-tez görmək mümkündür. Heydər Əliyev Fondu Yeni il, Novruz, Qurban, Ramazan bayramlarında, həmçinin digər mühüm günlərdə uşaqlar üçün müxtəlif tədbirlər təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti bəzən hətta öz ad gününü uşaq evində keçirir. Ciddi xəstəliklərdən (onkoloji xəstəliklər, talassemiya və s.) əziyyət çəkən uşaqlar, çoxuşaqlı ailələr, aztəminatlı insanlar, Ermənistanın təcavüzü nəticəsində doğma evlərindən qovulmuş məcburi köçkünlər Mehriban Əliyevanın qayğısını hər zaman hiss edirlər. Bir sözlə, birinci xanım öz səlahiyyətlərindən Azərbaycan vətəndaşlarına, köməyə ehtiyacı olan şəxslərə yardım göstərmək üçün istifadə edir. Bu ilin yanvar-fevral aylarında Mehriban Əliyeva Qarabağ müharibəsi zamanı əlil olmuş şəxslərə və digər qrup insanlara da yardım əlini uzadıb. Məsələn, Birinci vitse-prezidentin bu ilin fevralında verdiyi tapşırığa əsasən, yaralanmış hərbçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib. Bundan əlavə, o, Azərbaycan Hərbi Hava Qüvvələrinin əfsanəvi pilotu olmuş Aleksey Şvarevin ailəsinə yardım göstərib. A.Şvarev 1995-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarından təqaüdə çıxıb və bu gün Ukraynada yaşayır. Onun qızı Yuliya Şvareva onurğa beynində ependioma xəstəliyindən əziyyət çəkir. Bu xəstəliyin müalicəsi bahalı olduğundan, ailənin klinikaya böyük məbləğdə borcu yaranmışdı. Hətta borcun ödənilməsi üçün ailə evini satmaq haqqında düşünürdü. Mehriban Əliyeva bundan xəbər tutan kimi, döyüşçü zabitin ailəsinə maddi yardım göstərilməsi barədə tapşırıq verib.

Bu da son deyil. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu ilin fevralında Ucar rayonunun Qaracallı kənd sakini, ağır mənzil-məişət şəraitində yaşayan ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi ev tikilməsi tapşırığını da verib. Bundan başqa, Bərdə rayonunda azyaşlı oğlu ilə birgə çətin şəraitdə yaşayan, Hepatit B və onkoloji xəstəliklərdən əziyyət çəkən Nazilə Musayevanın əməliyyat olunması və gələcək müalicəsi ilə bağlı bütün xərclər Heydər Əliyev Fondu tərəfindən təmin ediləcək.

Bir sözlə, Azərbaycanın birinci xanımı xeyirxahlığı və humanizmi ilə ölkənin adını bütün dünyada ucaldır. O, öz nümunəsi ilə müasir Azərbaycan qadınının gözəlliyini, köməyə və qayğıya ehtiyacı olan şəxslərə sonsuz məhəbbətini, tolerantlığını, humanistliyini nümayiş etdirir. Bu gün Azərbaycan qadını Mehriban Əliyevanın nüfuzu ilə, həmçinin qayğıya və köməyə ehtiyacı olan insanlara sevgisi ilə qürur duyur, ondan nümunə götürür.

Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ölkədə yüzlərlə bağça, uşaq evi, park, məktəb, idman kompleksi, dini abidə tikilib və ya bərpa olunub. Fond təhsil, ətraf mühit, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları, idman sahələrində də fəaldır, həmçinin "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində musiqi festivalları təşkil edir, tarixi əhəmiyyətə malik dini-mədəni abidələrin bərpasını həyata keçirir.

Sonda bir məqamı xatırlatmaq yerinə düşərdi: 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçki hüququ vermiş ilk ölkə olub. Azərbaycan bu mənada ABŞ və Avropanın bir çox ölkəsini belə qabaqlayır.

Bu gün Azərbaycan qadınları ölkənin inkişafında, çiçəklənməsində fəal iştirak edirlər. Onlar ölkənin bütün sahələrində, bütün səviyyələrdə ciddi rol oynayırlar. Bu məsələdə Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın xidmətləri danılmazdır. Bu gün güclü ictimai-siyasi xadimi olan Mehriban Əliyeva nümunə götürüləcək şəxsdir. Qərb KİV-ləri xüsusilə postsovet məkanında birinci xanım institutunun əhəmiyyəti və rolunun Mehriban Əliyevanın sayəsində artdığını yazır ki, bu da təsadüf deyil.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 aprel 2019-cu il

# Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dövlətimizin mövqeyi qəti və birmənalıdır



## *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

***-Sevinc xanım, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcüd durumu necə dəyərləndirirsiniz?***

-Bilirsiniz ki, Azərbaycanın xarici siyasətinin prioritetini Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasəti nəticəsində diplomatik cəbhədə əhəmiyyətli uğurlar əldə edilib. Azərbaycan tərəfi münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda siyasi iradə nümayiş etdirərək bu problemin nizamlanması yolunda konstruktiv mövqe sərgiləyib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin qarşıya qoyduğu ən prioritet məsələdir. Ermənistanın hərbi təcavüzü səbəbindən meydana çıxan bu münaqişə nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və yeddi ətraf rayon işğal edilib, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Müəyyən müddətdir ki, davam edən danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi, hərbi sahələrdə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyü məsələsində də respublika rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi Ermənistan və bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb.

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Azərbaycan yeni hakimiyyətdən düzgün qərarlar gözləyir. Ötən bir il ərzində yeni hakimiyyət münaqişənin həlli ilə bağlı ziddiyyətli bəyanatlar verib, danışıqların formatının dəyişdirilməsi haqda fikirlər səsləndirib. Azərbaycan tərəfi isə prinsipial mövqeyini Nikol Paşinyan hakimiyyətinin diqqətini çatdırıb. Martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüşün keçirilməsi bir daha təsdiq edir ki, danışıqların formatı dəyişməz qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar yalnız Azərbaycan Respublikası və Ermənistan arasında aparılır.

Ermənistan rəhbərliyi bundan öncə danışıqların formatının dəyişdirilməsinə dair məntiqsiz və absurd fikirlər səsləndirərək manipulyasiyaya yol verdi. Amma Azərbaycan buna imkan vermədi, işğalçı ölkə rəhbərliyinin danışıqları pozmaq və məsuliyyətdən yayınmaq cəhdləri baş tutmadı.

Vyanada Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında iki saatdan artıq təkbətək görüş keçirildi, daha sonra görüşə həmsədrlər və ölkələrin xarici işlər nazirləri də qatıldılar, nəticədə üç saatdan artıq müddətdə danışıqlar aparıldı. Bu görüşün keçirilməsi və danışıqların formatının dəyişməz qalması Azərbaycanın növbəti diplomatik uğurudur. Azərbaycanın mövqeyi qəti və birmənalıdır: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı, Ermənistan qoşunları ölkəmizin işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

***-Aprel döyüşlərindən 3 il ötür. Bu hadisə Azərbaycan Ordusunun gücünü göstərdi. Sizcə, erməni tərəfi hansı nəticələr çıxarmalıdır?***

-Ermənistan tərəfi 2016-cı ilin 1-5 aprel tarixində cəbhə xəttində növbəti təxribat törədərək vəziyyəti gərginləşdirməklə Azərbaycanın diplomatik uğurlarını və beynəlxalq aləmin münaqişənin ədalətli həlli ilə bağlı qəti mövqeyini neytrallaşdırmağa çalışıb. Lakin Azərbaycan Ordusunun düşmənin təxribatlarının qarşısını alması, nəticədə Ermənistan silahlı qüvvələrinin 200-ə yaxın hərbçi, çoxsaylı texnika itirməsi, həmçinin 2000 hektara yaxın ərazinin, o cümlədən Lələtəpə və Talış yüksəkliklərinin geri qaytarılması, silahlı qüvvələrimizin on minlərlə hektar əraziyə nəzarət etmək imkanı qazanması Ermənistanın niyyətlərini puç edib. Aprel döyüşləri həm də onu göstərdi ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmaq, Ermənistanın təxribatlarına dözmək niyyətində deyil və düşmənə layiqli cavab vermək əzmi və iqtidarındadır.

Bütövlükdə, aprel döyüşləri zamanı Azərbaycan Ordusu Ermənistanın təxribatçı hərəkətlərinin qarşısını layiqincə almaqla yanaşı, həm də qarşıya qoyulan hədəflərə nail oldu. Digər tərəfdən, aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, habelə Azərbaycan əsgərinin vətənpərvər və qəhrəman olduğunu nümayiş etdirdi. Onu da vurğulamaq lazımdır ki, Azərbaycan Ordusunun şanlı aprel qələbəsi həm də beynəlxalq ictimaiyyət tərəfindən münaqişənin həlli məsələsinə adekvat yanaşmanın ortaya qoyulmasını şərtləndirib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, aprel döyüşlərindən sonra ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatların nümayəndələri, rəsmilər Ermənistanın təxribatçı hərəkətlərinə son qoyulmasının və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyini bəyan etdilər. Bu isə onu deməyə əsas verir ki, dünya ictimaiyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyini kəskin qınayır.

Bundan başqa, ATƏT-in Minsk qrupu da mövcud status-kvonun davam edə bilməyəcəyi qənaətindədir və bu fikir açıq şəkildə ifadə olunub. Ümumiyyətlə, 2016-cı ilin aprelindən sonra beynəlxalq ictimaiyyət bir daha anladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə ciddi təhdidlər yaradan destruktiv problemdir. Başqa sözlə, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində yaranmış münaqişə ölkəmizin ərazi bütövlüyünə qarşı törədilmiş qəsdin və təcavüzkar siyasətin əyani nümunəsi olmaqla yanaşı, həm də regional və qlobal təhlükəsizlik sistemi üçün ciddi təhdiddir. Ona görə də bu problemin həlli beynəlxalq təhlükəsizliyin diktə etdiyi zəruri amildir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nə qədər ki ədalətli şəkildə həll edilməyib, regionda bütövlükdə sülh və sabitlikdən bəhs etməyə dəyməz. Çünki ərazi iddialarının, təcavüz faktının və separatizmin mövcud olduğu məkan və şəraitdə qarşılıqlı maraqlara söykənən əməkdaşlıq niyyətlərini istənilən səviyyədə reallaşdırmaq qeyri-mümkündür. Aprel döyüşlərindən sonra yaranmış vəziyyətin fonunda hazırkı şərait belədir ki, artıq Azərbaycan məğlub, Ermənistan isə qalib tərəf kimi qəbul olunmur, ATƏT-in Minsk qrupu isə münaqişənin həll edilməsinin zərurət olduğunu diqqətə çatdırır. Yaranmış yeni hərbi-siyasi şərait Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllini zəruri edir.

***-Bu yaxınlarda Ermənistanın müdafiə naziri David Tonoyan münaqişə ilə bağlı təxribat xarakterli bəyanat verdi. Buna münasibətiniz necədir?***

-Əlbəttə ki, David Tonoyanın fikirləri qəbuledilməzdir və beynəlxalq birlik Ermənistanın müdafiə nazirinin bu mövqeyinə münasibət bildirməlidir. D.Tonoyan açıq şəkildə öz dövlətinin işğalçı olduğunu etiraf etmiş olur. Erməni nazirin "sülh üçün ərazi" formulunun "yeni müharibə - yeni ərazilər" formuluna çevrilə biləcəyi fikrini başqa cür qiymətləndirmək mümkün deyil.

Bilirsiniz ki, Azərbaycanın Xarici İşlər Nazirliyi də məsələ ilə bağlı mövqeyini ifadə edib. Ermənistan anlamalıdır ki, hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır və beynəlxalq hüququn ona verdiyi özünümüdafiə haqqı ilə Azərbaycan işğal edilmiş torpaqlarını qısa müddətdə azad etmək iqtidarındadır.

Azərbaycan Ermənistan kimi digər dövlətlərin ərazilərinə iddialarla çıxış etmir və ərazilər zəbt etmək fikrində deyil. Azərbaycanın tələbi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, onun beynəlxalq tanınmış ərazilərindən işğalçı Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasıdır. Bütün bu illər ərzində beynəlxalq ictimaiyyətin dəstəyi ilə aparılan səylərimiz məhz bu məqsədə yönəlib. Əks təqdirdə, Azərbaycan beynəlxalq hüququn müvafiq norma və prinsipləri, o cümlədən BMT Nizamnaməsini rəhbər tutaraq öz torpaqlarını bütün digər vasitələrlə erməni işğalından azad etməyə hazırdır. Bundan ən yaxşı xəbərdar olan elə məhz Ermənistandır.

Əgər erməni tərəfi yenə torpaqlarımızı işğal etməyə cəhd edərsə, layiqli cavabını alacaq. 2016-cı ilin aprel döyüşləri bu reallığı təsdiqləyir. Məlumdur ki, aprel döyüşləri zamanı ordumuz düşmənin müdafiə xəttini cəmi 18 dəqiqəyə yardılar. Bu isə ordumuzun gücünün əyani sübutu, Ermənistanın isə öz ordusu haqda yaratdığı mifin iflası oldu. Ona görə də, erməni ordusu Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməz.

Digər tərəfdən, Ermənistanın hakimiyyət nümayəndələrinin münaqişənin həlli ilə bağlı fərqli, ziddiyyətli fikirlər səsləndirməsi işğalçı ölkənin yeni iqtidarının qeyri peşəkarlığını göstərir. Eyni zamanda, bu fakt hakimiyyət daxilində siyasi qarşıdurmanın da göstəricisi ola bilər.

## "”SƏS”in tarixi mövqeyini qorxmadan, çəkinmədən davam etdirəcəyik"



***"”SƏS” qəzeti öz tarixi missiyasını davam etdirən və müstəqilliyimizin əldə edilməsində, dövlətçilik maraqlarının qorunmasında, inkişaf etdirilməsində məxsusi yeri və rolu olan iqtidaryönlü radikal mətbu orqanıdır və bu reallıq hər zaman olub, bundan sonra da olacaq".***

***Sözügedən fikirləri SİA-ya "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev "Yeni Müsavat"ın canlı yayımında "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı ilə "SƏS" qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyevin debatına münasibətini açıqlayarkən deyib.***

O, qeyd edib ki, "SƏS" qəzeti müxtəlif dövrlərdə Azərbaycan dövləti və xalqı əleyhinə çıxış edən istənilən siyasi təşkilatlara, siyasi şəxslərə, məmurlara, o cümlədən, beynəlxalq təşkilat və qurumlara öz kəskin prinsipiallığı, barışmaz mübarizliyi, dəyişilməz əqidəsi və kredosu ilə cavab verib, bundan sonra da belə olacaq: "Yeni kimliyindən, hansı siyasi mənsubiyyətə malik olmasından asılı olmayaraq, hər hansı bir şəxs və qurum Azərbaycan dövlətinin və xalqının əleyhinə fəaliyyət göstərərsə, bu zaman qarşısında mütləq "SƏS" qəzetini, qəzetin iti süngüsünü - qələmini görəcək. Bundan kimsənin şübhəsi olmasın".

Bəhruz Quliyev əlavə edib ki, bu gün özlərini mətbuat adamı kimi təqdim edən bir qrup insan nədənsə bəlli mövzular ortaya çıxan kimi "SƏS" qəzetinin fəaliyyəti barədə danışırlar: "Bu mətbu orqanın kəskin tənqidlərini özlərinə həqarət bilənlər əslində, həmin problemi özlərində axtarmalıdırlar. Qəzet cəmiyyətin aynasıdır və bəlli tənqidi yazılar, məqalələr kimlərisə bu qədər narahat edirsə, həmin narahatlıqlarının köklərini ilk öncə özlərində arayıb-axtarmalı, həqiqəti dərk etməlidirlər. Bəli, bu qəzet yuxarıda qeyd etdiyim bir sıra amillərə söykənərək, kifayət qədər sərt, kəskin mövqelər nümayiş etdirib. Bu kimi mövqelər isə əlbəttə, "SƏS"in, bütövlükdə isə "Səs"çilərin dövlətə bağlılıqlarının bariz sübutudur. Əbəs deyil ki, bu qəzetin fəaliyyəti Ulu Öndərimiz Heydər Əliyev tərəfindən, eləcə də cənab Prezident İlham Əliyev tərəfindən çox yüksək qiymətləndirilib və biz - "SƏS" ailəsi olaraq, tarixi mövqeyimizin dəyişilməzliyini əməli fəaliyyətimizlə qorxmadan, çəkinmədən davam etdirəcəyik".



# YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb



Aprelin 5-də Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bununla əlaqədar keçirilən tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycanda uğurlu sosial siyasət həyata keçirilir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasətində vətəndaşların sosial rifahı faktoru mühüm yer tutur. "Yeni Azərbaycan Partiyasının fəaliyyətində də sosial məsələlər daim diqqət mərkəzindədir. Partiyanın Gənclər Birliyi olaraq biz də sosial yönümlü layihələr həyata keçiririk. Bu baxımdan, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi ilə əməkdaşlıq haqqında Memorandum imzalanması əhəmiyyətlidir"-deyə, S.Orucov vurğulayıb.

YAP Gənclər Birliyinin sədri deyib ki, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi fəaliyyəti genişdir və bu mərkəzin regionlarda filialları fəaliyyət göstərir. S.Orucov gələcəkdə YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin birgə sosial layihələr keçirəcəyini diqqətə çatdırıb.

Çıxış edən "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri Təranə Məmmədova rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, "Loqos" fəaliyyət göstərdiyi müddət ərzində birçox uğurlara imza atıb. Mərkəzdə 300 nəfərin çalışdığını deyən T.Məmmədova "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzində YAP ərazi ilk partiya təşkilatının da fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Əməkdaşlıq haqqında memorandumun əhəmiyyətindən danışan T.Məmmədova YAP Gənclər Birliyi ilə birgə sosial layihələrin həyata keçirilməsinə maraqlı olduqlarını deyib.

Sonra YAP Gənclər Birliyinin sədri Seymur Orucov və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri Təranə Məmmədova əməkdaşlıq haqqında Memorandum imzalayıblar.

# "Dualarda yaşayan şəhidlər"



***Bakı Slavyan Universitetində Gənc Yaradıcılar Klubunun təşkilatçılığı ilə aprel döyüşlərinin üçüncü ildönümünə həsr olunmuş "Dualarda yaşayan şəhidlər" adlı anım mərasimi keçirilib. Mərasimdən öncə, BSU-nun müəllim heyəti və Tələbə - Gənclər Təşkilatının üzvləri II Fəxri Xiyabanda yerləşən aprel şəhidlərinin məzarlarını ziyarət ediblər.***

Anım tədbirinin əvvəlində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Mərasimi giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva aprel ayında baş vermiş hadisələri yaxın tariximizin həm kədərli, həm də qürurverici səhifəsi adlandırıb. O bildirib ki, aprelin 1-dən 2-nə keçən gecə qəhrəman Azərbaycan Ordusu-xalqımızın əsgər və zabitləri erməni təxribatına layiqli cavab verərək, uğurlu əks-hücum əməliyyatı keçirib, düşmənə sarsıdıcı zərbələr vurmuşlar. Nurlana Əliyeva deyib: "Aprel döyüşlərindən sonra Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir. Bizim əsgərlərimiz, zabitlərimiz sübut etdilər ki, Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hər an hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu Ermənistanın uzun illər öz ordusu haqqında uydurduğu miflərin yalan olduğunu bir daha sübut etdi". Rektor YAP Qadınlar Şurasının sədri kimi aprel döyüşlərindən sonra cəbhə xəttində əsgərlərlə görüşündən söz açıb, Azərbaycan əsgəri üçün yaradılan şəraiti qürur hissi ilə ifadə edib. O, qeyd edib ki, ordumuzun ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlarla, hərbi texnika ilə təmin edilməsi Prezident İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi dəstəyin bariz nümunəsidir. Sonra aprel şəhidlərinə həsr olunan video-çarxın nümayişi olub.

Daha sonra çıxış edən Qarabağ müharibəsi veteranı, BSU-nun Azərbaycanşünaslıq Elmi-Tədqiqat Laboratoriyasının müdiri, dosent Sadir Məmmədov aprel döyüşləri zamanı Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr endirməsindən, qəhrəman oğullarımızın döyüşlərdə göstərdiyi şücaətdən danışıb. S.Məmmədov qeyd edib ki, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da, böyük əhəmiyyəti vardır. Lələtəpə əməliyyatını Azərbaycan xalqının qəhrəmanlıq rəmzi adlandıran S.Məmmədov aprel döyüşlərini müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biri kimi dəyərləndirib. Sonra ekrandan Prezident İlham Əliyevin aprel döyüşləri ilə bağlı nitqi dinlənilib.

Tədbirdə çıxış edən BSU-nun məzunu, gənc jurnalist Xəyal İbrahimzadə "Aprel döyüşləri-qələbəyə gedən yol" adlı məruzəsində aprel döyüşləri zamanı cəbhə xəttində hazırladığı reportajı tədbir iştirakçılarına təqdim edib. X.İbrahimzadə gəncləri sosial şəbəkələrdə ordumuzla bağlı yayılan şaiyələrə inanmamağa, dəqiq olmayan informasiyaları yaymamağa səsləyib.

Aprel döyüşlərinin canlı iştirakçısı, həmin döyüşlərdə cəbhə xəttində xidmət edən Nizaməddin Babazadə döyüş təəssüratlarını iştirakçılarla bölüşüb. O deyib: "Döyüşlər zamanı təmas xəttinə yaxın yerləşən kəndləri təhlükəsizlik məqsədilə boşaltma gedərkən, gördüm ki, vətəndaşlarımızda nə qədər milli ruh var. Onlar nə qədər qorxmaz insanlardırlar ki, atəş altında qalaraq öz doğma evlərini və kəndlərini tərk etməmişdilər".

BSU-nun tələbəsi İradə Cəfərovanın "aprel döyüşlərində qazanılan uğur" adlı məruzəsində BSU-nun məzunu, şəhid Vüqar Süleymanov haqqında geniş söhbət açıb, şəhidin xatirəsini yad edib. Eyni zamanda, iştirakçılar BSU YAP gənclər birliyinin aprel döyüşləri haqqında 13 dildə hazırladığı video-çarxı izləyiblər. Tədbir Gənc Yaradıcılar Klubunun tərcümə fakültəsi üzrə fəal tələbələrinin vətənpərvərliklə bağlı bədii kompozisiyasının təqdimatı ilə davam edib.

**ZÜMRÜD**

## Dünya Bankı Azərbaycanda iqtisadi artım proqnozunu yaxşılaşdırıb




Dünya Bankı Azərbaycan iqtisadiyyatının 2020-ci ildə 3,5 faiz, 2021-ci ildə isə 3,7 faiz artacağını gözləyir. Bu barədə bankın Avropa və Mərkəzi Asiya üzrə yenilənmiş hesabatında qeyd olunur. Bundan əvvəlki hesabatla müqayisədə Azərbaycan iqtisadiyyatının artımı üzrə proqnoz müvafiq olaraq 0,2 faiz və 1 faiz bəndi yüksəlib. Hesabatda bildirilir ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı orta sürətlə artıb, buna sabit neft hasilatı və daxili tələbata orta artım imkan verib. Nəticədə ötən il real ÜDM 1,4 faiz artıb. Neftdən gəlirlər əhəmiyyətli dərəcədə çoxaldıqca fiskal xərclər və real əməkhaqqı da artıb. Təbii qaz ixracının artması halında ortamüddətli perspektivdə iqtisadi artımın sürətlənəcəyi proqnozlaşdırılır. Ötən il qeyri-enerji sektoruna investisiyalar 22 faiz yüksəlib. Hesabata əsasən, ölkənin beynəlxalq ehtiyatları 5,6 milyard dollaradək artıb. Azərbaycan Dövlət Neft Fondunun aktivləri 38,5 milyard dollara çatıb ki, bu da ÜDM-in 82 faizini təşkil edir.

# “Siyasi partiyaların cəmiyyətdə rolu”

*“Səs” qəzetinin redaksiyasında bu mövzuda ölkənin aparıcı partiyalarının iştirakı ilə dəyirmi masa keçirilib*



**(Əvvəli ötən sayımızda)**

Artıq illərdir ki, “Səs” qəzeti tərəfindən, ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil olunur. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri ilə yanaşı, ölkəmizdə dövlət başçısının rəhbəriliyi ilə həyata keçirilən islahatlar və layihələr ətrafında dövlət nümayəndələrinin, millət vəkillərinin və ictimai təşkilat rəhbərlərinin iştirakı ilə müzakirələr aparılır.

Növbəti dəyirmi masa “Siyasi partiyaların cəmiyyətdə rolu” mövzusunda keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, millət vəkili Elman Nəsirov, Azərbaycan Sosial-Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə, Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli, Azərbaycan Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev, AMİP-in siyasi şurasının üzvü Əli Orucov, Müasir Müsavat Partiyasının sədr müavini İbrahim Həsənov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu, Azadlıq Hərəkatçıları İB-nin sədri Təhmasib Novruzov, AXCP sədri Əli Kərimlinin əmisi oğlu “Azərbaycan Fermeri” qəzetinin baş redaktoru Nuhəli Kərimov, gənc fəal Fuad Muradov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələblərinə uyğun siyasi islahatların, icra edilən iqtisadi proqram və sərəncamların ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verdiyini diqqətə çatdırdı: “Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunlar Azərbaycanda dövlət və xalq birliyinin bariz nümunəsidir”.

## İCTİMAİ-SİYASİ SABİTLİYİN YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLDİYİ ÖLKƏMİZDƏ BÜROKRATİK ƏNGƏLLƏR VƏ KORRUPSİYA HALLARI ARADAN QALDIRILIB

**İBRAHİM HƏSƏNOV:**

- 1993-cü illə bu günümüzü müqayisə etsək, böyük nailiyyətlər əldə olunduğunu görərik. Hər bir Azərbaycan vətəndaşı ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi olur, iqtisadi inkişafın nəticələrini özünün həyat səviyyəsinin yüksəlməsində hiss edir. Müstəqillik dövründə Azərbaycanın həyata keçirdiyi islahatlar, dövlət proqramları, layihələr Azərbaycanın imicini dəyişib, onu sürətlə inkişaf edən ölkəyə çevirib. Təbii ki, inkişafı inkar etmək olmaz. Bu inkişafı biz Azərbaycanın bütün regionlarında və paytaxt Bakıda görürük. İctimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkəmizdə bürokratik əngəllər və korrupsiya halları aradan qaldırılıb. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Bu gün ölkəmizdə, bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı islahatlar aparılır. Həqiqətən də, Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Dövlətimiz tərəfindən aparılan islahatlar bütün sahələri əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyev məhkəmə-hüquq sistemində də islahatların aparılacağını bildirib. Bu, gözənilləndir.

Bu gün özünü müxalifət adlandıran bir qrup şəxslər insanları mitinqə çağırırlar. Doğrudur, Azərbaycan Konstitusiyasında insanların sərbəst toplaşmaları onların haqqıdır. Hər kəs birləşə, toplantı keçirə bilər. Ancaq bütün bunlar icazəli şəkildə keçirilməlidir. Bakı Şəhər Baş Polis İdarəsindən Bakı Şəhər İcra Hakimiyyətinə məlumat verilib ki, keçirilən mitinqdə ictimai qaydalar pozulub. Əli Kərimli mitinq zamanı kəskin surətdə dövlətimizə qarşı əsassız çıxışlar etmişdi. Biz təmsil olunduğumuz partiyanın sədrinin imzası ilə məktub hazırlayıb, baş prokurorluğa göndərdik. Cinayət Məcəlləsinin 323-cü maddəsinə görə, dövlət başçısının şərəf və ləyaqətinin ləkələnməsi cinayətdir.

Azərbaycanın uğurlarına, Cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan inkişafa kölgə salmağa cəhd etsələr də, buna nail ola bilməzlər.

## BU GÜN AZƏRBAYCAN İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜNÜ YAŞAYIR

**TƏHMASİB NOVRUZOV:**

- 1993-cü ildən bu günə qədər ölkəmizdə genişmiqyaslı işlər görülüb. 1993-cü ildən sonra Azərbaycan dövlətinin dirçəlməsi, onun mövqeyinin və təməlinin möhkəmlənməsində Ulu Öndərin rolu əvəzsiz olmuşdur. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, qısa bir müddət ərzində, iqtisadi dirçəliş başlandı, terror cəhdləri və çevriliş cəhdlərinin qarşısı alındı, ordu yaradıldı, konstitusiya qəbul olundu, azərbaycançılıq ideyası yaradıldı və Azərbaycanda bu ideyanın çox uğurlu bir inkişafı başladı.

Ümummilli Liderin bizə ərməğan qoyub getdiyi zəngin irsi müstəqil Azərbaycan dövlətinin sütun dirəkləridir. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. 2003-cü ildən sonra Azərbaycanın inkişafında yeni bir mərhələ başladı. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik siyasəti nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Həqiqətən də, Azərbaycan son illərdə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Davamlı inkişafı ilə tanınan ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbul və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib. Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir.

Məni narahat edən məsələ odur ki, dövlət başçısı Azərbaycan xalqını narazı salan bir məmuru vəzifəsindən azad etdikdən sonra bir həftə keçməmiş bəzilərinin müxalifətin hansısa bir küncündən səsi gəlir. Dəfələrlə biz bunun şahidi olmuşuq. Ölkə başçısı hakimiyyətdə olduğu zaman xalqın etimadını doğrultmayan, korrupsiya ilə məşğul olan bir məmuru vəzifədən kənarlaşdırırsa, bütün müxalifət partiyaları da həmin şəxsə qarşı olmalıdırlar. Əksinə, onu tərif edir, dövlətə qarşı çıxış etməsinə çalışırlar. Bu gün “Səs” qəzetinin təşkil etdiyi belə dialoqlara cəmiyyətin ehtiyacı var. Azərbaycanın uğurları hər bir vətənini sevən insanı qürurlandırır.

## MÜXALİFƏT XARİCDƏN MALİYYƏLƏŞƏRƏK AZƏRBAYCANIN QƏSDİNƏ DURAN ERMƏNİ QÜVVƏLƏRİNƏ XİDMƏT EDİR

**FUAD MURADOV:**

- Bu gün bir çox pariyalar sovet ideologiyasından qalmış təfəkkür ilə yaşayırlar. Birdəfəlik bilməlidirlər ki, ya alt dövlətə, ya da üst dövlətə xidmət etməlidirlər. Onların fəaliyyətində heç nəyi görə bilmirik. Yalnız insanlara “ağıl” verməklə məşğul olurlar. Müxalifətin mitinqlərinə gəlincə, bildirim ki, normal siyasi fəaliyyət göstərməmələri ucbatından cəmiyyət tərəfindən qəbul edilmir və keçirdikləri aksiyalarda uğursuzluğa düçar olurlar. Bu müxalifət xaricdən maliyyələşərək, Azərbaycanın qəsdinə duran erməni qüvvələrinə xidmət edir. Bəzi xarici kəşfiyyat idarələrinə xidmək göstərirlər. Birbaşa erməni hökumətinə xidmət edirlər. Bu gün ölkəmizdə Cənab Prezidentin rəhbərliyi ilə demokratik mühit var və belə bir mühitdə istənilən bir siyasi baxış nöqtəsi ola bilər. Antimilli qüvvələr bundan istifadə edərək gənclərimizə təsir göstərməyə çalışırlar. Bunlar müxalifət deyillər. Əgər müxalif fikirlidirlərsə, gəlib fikirlərini bəyan etsinlər, tələblərini, məqsədlərini ortaya qoysunlar. Axı bunların heç bir məqsədi, istəyi yoxdur. Amerika-Azərbaycan yolunu Bakı-Qazax yoluna çeviriblər. Məramını açıqla, bilinsin ki, xalqına, millətinə və dövlətinə xidmət edirsən. Azərbaycan dövlətinə, Azərbaycan xalqına qarşı lazımsız ifadələr işlədib, xalq arasında çaxnaşma salmaq cəhdləri nə məqsəd daşıyır? Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətə qaydışı ilə müstəqil dövlətimizi qurdu və onun təməlini möhkəmlətdi. Amma 1993-cü ilə qədər Azərbaycanda hökm sürən xaos və anarxiya ölkəmizi uçuruma aprırdı.

Bunlar 1990-cı illərin əvvəllərində hansı vəziyyətdə idilərsə, bu gün də, eyni vəziyyətdədirlər. Çünki onlar mənsub olduqları siyasi düşərgədə heç bir islahatlar aparmayıblar. Cəmiyyət onların anormal siyasət apardıqlarını görür və bu baxımdan, onlara nifrət edir. Bu gün ölkəmizdə yetişən gənclər nəsli möhkəm iradəli, açıq dünyagörüşlü, savadlı və yetkindir. Onları hansısa antimilli düşüncə ilə yollarından sapdırmaq mümkün deyil.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əvəz Zeynallı, gəl, “SƏS” qəzetindən üzr istə!

## Yaxud od olmasa, tüstü çıxmaz...

***“Yeni Müsavat”ın canlı yayımında “Xural”ın baş redaktoru Əvəz Zeynallının həmkarım jurnalist İlham Əliyevlə debatını sona qədər izlədim. İzlədim və bir sıra nəticələr çıxararaq, bu nəticələrimi, uğrunda canımı fəda etməyə hazır olduğum “SƏS” qəzeti vasitəsi ilə qələmə almaq qərarına gəldim. 20 ildən artıqdır ki, bu qəzetdə Ulu Öndər Heydər Əliyev ideologiyasına və bu ideologiyanın inkişafı, tərəqqisi üçün fəaliyyət göstərirəm, tarixi mətbu orqandakı tribunamı qoruyub-saxlayıram, bununla da fəxr edirəm!***

O cümlədən, Dahi Öndər Heydər Əliyev ideologiyasını davam etdirən Prezident İlham Əliyev Cənablarının yürütdüyü siyasəti dəstəkləyirəm və bundan sonsuz qürur duyuram. Bu, ilk növbədə, mənim özəl fikrimdir və siyasi baxış nəzərimdir. Siyasi ona görə ki, mən özümü Ə.Zeynallıdan fərqli olaraq, siyasi mövqeyi olan jurnalist kimi təqdim edirəm, yəni onun kimi, gizlətməyə cəhd göstərmirəm. Hətta bu qəzetə yeni-yeni ayaq açarkən, artıq siyasi mövqeyimi müəyyənləşdirən gənc kimi “SƏS”in mübarizlik, əqidə prinsiplərini özümə lokomotiv olaraq seçdim, bu qəzetdə yaşımı, illərimi saydım. Mənim kimi bu qəzetdə yüzlərlə vətənsevər, namuslu insanlar halal maaşı ilə çalışıb, hətta əqidəsindən dönməyərək, bu qəzetin ən çətin dövrlərində belə burada külüng vurublar!

### Tarix-tarix olaraq qalır, yaşayır və yaşadılır!

Ona görə ki, məhz “SƏS” qəzeti vasitəsi ilə parçalanan Azərbaycan, məhv olan xalq reallığının qarşısı əzmlə, qətiyyətlə, iradə ilə alındı. Məncə, həmin tarixi hadisələr barədə Ə.Zeynallıya hər hansı bir xatırlatmanı etməyə ehtiyac yoxdur. Bəlkə də o, daxilindəki avantüraçılıq, qisasçılıq hisslərinə dərindən qapılaraq, gerçək tarixi qəbul etməyə, yaxud hadisələri, necə deyərlər, jurnalist bicliyi ilə istədiyi səmtə tərəf yoza bilər, amma tarix-tarix olaraq qalır, yaşayır və yaşadılır. Bu tarixi hansı səmtə hərləsən də, fırlasan da, su axıb-öz çuxurunu tapır...

Fəqət bu əsnada, sözügedən debatda Ə.Zeynallının ironik tərzdə “dədə ocağım” adlandırdığım “SƏS”in guya “Azərbaycan mətbuatına söyüşü gətirən qəzet” kimi təsvir etməsi məni, nəticə olaraq bu məqaləni yazmağa vadar etdi. Əslində isə, heç də sənin düşündüyün deyil, Ə.Zeynallı...

### Nəyə görə müxalifətçilik mövqeyini danıb, onu müstəqil jurnalist mövqeyi ilə malalayırsan, axı, bu, başadüşülən deyil, Ə.Zeynallı...

Sadəcə, “SƏS” qəzeti radikal iqtidaryönlü qəzet olaraq, sərt, hətta daha kəskin tənqidlərlə çıxış edir və əgər sən, o, başqası həmin kəskin tənqidləri “təhqir” kimi qəbul edirsinizsə, bu heç də bizim problem deyil, bu problem sizlərin kəskin tənqidləri “təhqir” kimi qəbul etməyinizdədir və ən əsası, nə qədər inkar etsən belə, cəhd etsən belə, gizlədə bilmədiyin sənin müxalifətçilik mövqeyindir. Nəyə görə müxalifətçilik mövqeyini danıb, onu müstəqil jurnalist mövqeyi ilə malalayırsan axı, bu, başadüşülən deyil, Ə.Zeynallı...

Axı fakt budur ki, sən həmin debatda bir neçə dəfə təkrar edirsən ki, “tərəfsiz”, “siyasi mövqeyi olmayan” jurnalistsən və s. Yaxşı, onda sənin bazar ertəsi Əli Kərimlinin, çərşənbə axşamı Arif Hacılının, çərşənbə günü İsgəndər Həmidovun, cümə axşamı Əli İnsanovun, cümə günü İlqar Məmmədovun, şənbə günü isə Mehman Əliyevin yanında nə işin var? Deyəcəksən ki, jurnalistəm və “Qazan qaynadıram”. Bəs onda “Qaynar qazan”ınla birgə niyə, məhz qaragüruhçuların yanındasan, niyə müxalif mövqeli şəxslərlə oturub-durub, sonra da deyirsən ki, “müstəqiləm”, “siyasi mövqeyim yoxdur-filan”?! Bunlar da öz yerində...

### Əgər mən bu gün durub desəm ki, söyüşü Azərbaycan mediasına AXCP-nin “Azadlıq” və uzun illər Müsavatın ruporu olmuş “Yeni Müsavat” qəzetləri gətirib...

Əgər mən bu gün durub-desəm ki, söyüşü Azərbaycan mediasına AXCP-nin “Azadlıq” və uzun illər Müsavatın ruporu olmuş “Yeni Müsavat” qəzetləri gətirib, bunu inkar etmək üçün hansı faktları gətirə bilərsən, Ə.Zeynallı?! 16-17 il bundan öncə, (hələ o vaxtın “Hürriyyət”, “Bizim Yol”, “Müxalifət” və s. müxalifətyönlü qəzetlərini demirəm - R.N.) dövlət və hakimiyyət nümayəndələrinə qarşı izafi, iyrənc, heç bir mənəviyyata sığmayan təhqirləri, məhz həmin qəzetlər yazmırdılarmı?! Əcəba, bu məsələləri niyə etiraf etmirsən, Ə.Zeynallı?! Nə əcəb əlində bircə “SƏS” qəzeti “bitib”?! Ona görə ki, həmin dövrlərdə bizlərə qarşı yazılan təhqirlərə kəskin cavablara görəmi?! Yoxsa elə sanırsan ki, onlar təhqir edəcəkdilər, hakimiyyətin mövqeyini müdafiə edən jurnalistlər susacaqdılar?!

### Sən - Ə.Zeynallı özünü aydan arı, sudan duru təqdim edirsənsə, dələduz və qrantyeyənlərin yanlarında nə gəzirsən?!

Niyə debatdakı çıxışında xatırlatmadın ki, bu gün özünün də təmsil olunduğun müxalifət cameəsi siyasətlə deyil, qisasçılıq hissi ilə yaşayır - istər bir-birlərinə, istərsə də iqtidara qarşı?! 2003-cü ilin 15-16 oktyabr hadisələrində “SƏS” qəzetinin redaksiyasına hücum planı təşkil edənlər bunu 1992-ci ildə də etməmişdilərmi?! Nə oldu, bu gün demokratik mətbuatı “qeyri-demokratik mətbuat” adlandıranlar elə həmin məxluqlar deyillərmi, özünün də təmsil olunduğun “Media Klubu”nun bəzi başbilənləri, elə Mehman Əliyevi götürək, dələduz deyilmi, Ə.Zeynallı?! Axı nəinki bizdə, eləcə də, digər mətbu orqanlarda M.Əliyevin Sorosun Bakı bürosuna rəhbərliyini sübut edən (!) faktlar, onun qrantyeyənliyini isbatlayan dəlillər mövcuddur. Sən - Ə.Zeynallı özünü aydan arı, sudan duru təqdim edirsənsə, dələduz və qrantyeyənlərin yanlarında nə gəzirsən?! Məqsədin bəllidir - xarici havadarların, bilavasitə sifarişləri əsasında yaradılmış, “Media Klubu”ndakı jurnalistika” adı altında gizlənmiş siyasi dəllallardan nə isə ummaq üçün. Daha dövlət, xalq, millət maraqları nəyinizə lazımdır ki?! Bir həqiqəti dedin ki, ianələr əsasında fəaliyyət göstərirsən. Amma onu yalan söylədin ki...



### Və...

Və daha bir sualım var. Əgər ölkədə media azad olmasa idi, bu gün “Qaynar qazan”ın fəaliyyət göstərə bilərdimi, ölkədə yüzlərlə müxalifətyönlü və iqtidaryönlü sayt və portallar oxuculara informasiya çatdırardılarmı?!

### Reketçilik “Xural”ın səhifələrinə yazılıb

Bu sualların sayını kifayət qədər çoxalda bilərəm, hətta sonsuza qədər suallar yağdıra bilərəm. Amma 100 % əminəm ki, məhz sən - Ə.Zeynallı olaraq, onların hər birin yuxarıda da qeyd elədiyim kimi, jurnalist bicliyi ilə özünə sərf edən tərəfə yozub, cavab verəcəksən. Məsələn, iddia edirsən ki, heç vaxt, heç kimdən fəaliyyətin müqabilində pul-filan almamısan? Bəs almağın, satmağın, reketçiliyin barədə faktları ortaya çıxarsaq, necə? Debatda KİVDF-nin gündəlik, günaşırı, yaxud həftəlik qəzetlərin 3 kateqoriyaya ayrılaraq, maddi vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı qərarı barədə bir kəlmə də olsun danışmadın. Əksinə, “media bərbad gündədir” deyib, özünü bu sahənin ən “məzlumu” kimi göstərməyə çalışdın. Niyə? Daha çox ianələr əldə edərək, jurnalistika adına ləkələr yaxmaq üçünmü? Bir vaxtlar “Xural”ın səsi məktəblərdən, uşaq bağçalarından, digər müəssisələrdən gəlirdi və elə gəlirdi ki, olmayan kimi. Bundan təəccüblənmirəm zatən. Ona görə ki, reketçilik “Xural”ın səhifələrinə yazılıb. Əgər Mətbuat Şurasından “dad” edirsənsə, onu da bilməlisən ki, od olmasa, tüstü çıxmaz, Ə.Zeynallı! Yaxud soğan yeməmisənsə, için niyə göynəyir?

### “SƏS” qəzetinin dəfələrlə qonağı olmusansa, sonradan məqsəd və məramını dəyişmisənsə, indi də redaksiyasında olduğun bir tarixi qəzetə qarayaxmalar atırsansa...

Deyirsən ki, iqtidaryönlü media müxalifət “liderlərini” dəvət edib, onların hər hansı bir fikirlərini öyrənmir və s. Nəyi öyrənməliyik, yoxsa ki, onların yalan, şər və böhtanlarınımı tirajlamalıyıq? Axı kifayət qədər bəllidir ki, bu gün Qərbdə “siyasi mühacirlər” adı altında ən rəzil davranışlar sərgiləyib, söyüş söyənlər də, məhz sənin tərəfini saxladığın Əli Kərimlinin, Arif Hacılının və sairlərin əlaltılarıdırlar. Onlar da birbaşa bağlanıblar bəlli anti-Azərbaycan qüvvələrə. Bu da azmış kimi, Əli Kərimlidən üzr istənilməli olduğunu deyirsən (?!). Əsla mümkün olmayan bir ucuz təfəkkür məhsuludur bu iddian, Ə.Zeynallı! Və əgər sən - Ə.Zeynallı olaraq, özünün də etiraf etdiyin kimi, “SƏS” qəzetinin dəfələrlə qonağı olmusansa, sonradan məqsəd və məramını dəyişmisənsə, indi də redaksiyasında olduğun bir tarixi qəzetə qarayaxmalar atırsansa, əsl üzr istəməli elə özünsən, ona görə də, gəl “SƏS” qəzetinə çamur atdığına görə, üzr istə, biz bağışlamağı bacarırıq...

**Rövşən NURƏDDİNOĞLU**

## Nazirlik: Növbəti ixrac missiyası Riqaya gedir

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə növbəti ixrac missiyası aprelin 7-də Riqaya yola düşəcək. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, “Made in Azerbaijan” brendinin təşviqi, yerli məhsulların ixracının artırılması məqsədilə təşkil olunan ixrac missiyasına qida, şərab və digər spirtli içkilər, turizm və tekstil sahəsində fəaliyyət göstərən 23 Azərbaycan şirkəti daxildir. Missiya çərçivəsində Latviya və Azərbaycan şirkətlərinin iştirakı ilə işgüzar görüşlər keçiriləcək, Azərbaycan şərablarının dequstasiya mərasimi təşkil olunacaq. İxrac missiyası aprelin 7-10-u tarixlərini əhatə edəcək.

MADE IN AZERBAIJAN

# 113 yaşlı "Molla Nəsrəddin"

## "Molla Nəsrəddin" ənənələri yaşayır, bizləri düzlüyə və əqidəmizə sadiqliyə çağırır

***Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən biri "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin işıq üzü görməsi oldu. Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını ətrafına toplayan "Molla Nəsrəddin" Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz və başqa şair, yazıçı və jurnalistlər, o cümlədən, Oskar Şimmerlinq, İ.Rotter, Əzim Əzimzadə kimi rəssamlarla birgə milli düşüncəmizə, milli özünüdərkə və milli oyanışa bir təkan oldu. 1906-cı ilin 6 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın təməl daşı qoyuldu.***




Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsi, tez bir zamanda əks-səda doğurdu, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər. Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzularla çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, 20 ilə yaxın bir dövr ərzində, özünəməxsus olan məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.

### "MOLLA NƏSRƏDDİN" İLK SAYINDAN BAŞLAYARAQ DÜZÜ-DÜZ, ƏYRİNİ-ƏYRİ DEMƏYİ ÖZÜNƏ YOL SEÇMİŞDİR

Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrilmişdir. İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maarifləndirməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. "Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Azərbaycan ictimai mühitində böyük rol oynayan "Molla Nəsrəddin" ilk sayından başlayaraq düzü-düz, əyrini-əyri deməyi özünə yol seçmişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.

Satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. Məhz bu baxımdan, "Molla Nəsrəddin" ətrafını o dərəcə möhkəmləndirmişdi ki, mürtəce qüvvələr ona hücum etsələr də, belə bu hal təsirsiz qalırdı. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi.

### "MOLLA NƏSRƏDDİN"ÇİLƏR AZƏRBAYCANDA, ELƏCƏ DƏ, YAXIN ŞƏRQDƏ MƏTBUAT MƏKTƏBİNİ YARATDILAR

Qısa bir zaman məsafəsində, "Molla Nəsrəddin" məşhur satirik jurnal kimi tanınaraq, Mirzə Ələkbər Sabiri, Nəriman Nərimanovu, Əbdürrəhim bəy Haqverdiyevi, Ömər Faiq Nemanzadəni, Əli Nəzmini və başqalarını ətrafına toplayaraq, Cəlil Məmmədquluzadənin ideya silahdaşlarına çevirdi. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Suri-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yeşen" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edim ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi. Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Qeyd edim ki, jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu.

Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. Müasir dövrümüzdə də "Molla Nəsrəddin" jurnalının davamçıları yetişməkdədir. 1952-ci ildə "Kirpi" jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. "Kirpi" jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra "Kirpi"nin davamçıları "Şeytan", "Mozalan", "Karikatura", "Dəryaz" kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən bu qəzet və jurnallar "Molla Nəsrəddin" ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı. Onu da vurğulayım ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. "Molla Nəsrəddin" jurnalının davamçısı "Kirpi" olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

Bu gün "Molla Nəsrəddin" jurnalının 113 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə səsləyir.

**ZÜMRÜD BAYRAMOVA**

# "Nəsimi ili" ilə bağlı fərdi jurnalist yazıları müsabiqəsi elan olunub

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar birgə fərdi jurnalist yazıları müsabiqəsi elan edib. Fonddan AZƏRTAC-a bildirilib ki, müsabiqənin məqsədi Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq bu mövzuda jurnalist araşdırmalarını və yazılarını stimullaşdırmaqdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF

Müsabiqə "Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği" mövzusuna həsr olunub. Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunan yazının sərlövhəsi təklif olunmuş mövzu ilə eyni olmalı və jurnalist yalnız bir yazı təqdim edə bilər. Qəzet və jurnallarda çalışan jurnalistlərin yazıları yalnız çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır. İnformasiya agentliklərində, sayt və portallarda çalışan jurnalistlər yazılarını həmin saytlarda yerləşdirməli və linki məqalənin yazıldığı diskdə təqdim etməlidirlər. Yazı son bir ildə, həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşməyən mətbuat orqanlarında dərc edilməli, eyni zamanda, saytlarda yerləşdirilməlidir.

Yazıların qəbulu aprelin 8-dən iyunun 28-dəkdir. Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat), II yer üçün 2 nəfər (800 manat), III yer üçün 3 nəfər (500 manat) yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulub. Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcək. Qaliblər, həmçinin Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.



# Aprel döyüşlərinə həsr olunan tədbir keçirilib



Dünən Azərbaycan Dövlət İqtisad Universitetində Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən" devizi altında hərbi vətənpərvərlik bayramı keçirilib. SİA-nın verdiyi məlumata görə, Müdafiə Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Aprel döyüşlərində, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında və keçən ilin mayında Naxçıvan Muxtar Respublikasında uğurlu əks-hücum nəticəsində bir çox strateji yüksəkliklərin ələ keçirilərək min hektarlarla ərazilərin nəzarətə götürülməsində müstəsna xidmətləri olmuş hərbi hissələrin Bakıda, Azadlıq meydanında keçirilən hərbi paradlarda nümayiş etdirilən döyüş bayraqları meydana gətirilib.

Bayram tədbirində Milli Məclisin deputatları, müharibə veteranları, ayrı-ayrı ali təhsil müəssisələrinin nümayəndələri, universitetin professor, müəllim, tələbə heyəti ilə yanaşı, Aprel zəfərinin qazanılmasında xüsusi xidmətləri olan hərbi qulluqçular, generallar, zabitlər əsgərlər, eləcədə Xüsusi Təyinatlı Hərbi təhsil müəssisələrinin kursantları iştirak edirlər.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev, İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış ediblər.

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan əsgəri 2016-cı il aprelin əvvəllərində əks-hücum əməliyyatı ilə düşmənin layiqli dərsini verib, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan 2000 hektardan çox ərazisi azad edilib, minlərlə hektar torpaq Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Müdrik və qətiyyətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Aprel zəfəri Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun şanlı qələbəsidir. Bu qələbə ordumuzun gücünü, dövlətimizin qüdrətini və xalqımızın həmrəyliyini göstərdi. Düşmən ordusu bir həmləmizlə biabırçı məğlubiyyətə uğradı və illər boyu bərkidib betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir gecədə qovulub çıxarıldı. Düşmən təkcə məğlub edilmədi, o, həm də sındırıldı. Ermənilər Azərbaycan Ordusundan qat-qat gücsüz olduqlarını etiraf etdilər.

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin xüsusi ssenarisi əsasında qurulan tədbirdə Azərbaycan incəsənət ustaları, H.Aslanov adına Mərkəzi Zabitlər Evinin mahnı və rəqs ansamblının kollektivi konsert proqramı ilə çıxış ediblər.

***Ceyhun Rasimoğlu***

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib




Dünən Mətbuat Şurasının (MŞ) Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Şuradan SİA-ya verilən məlumata görə, toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.

"Karolina Valiant" mağazasının nümayəndəsi Hüseyn-Xəzər Məmmədovun "yenixeber.org" saytına qarşı şikayətini araşdıran komissiya üzvləri müəyyən ediblər ki, narazılıq doğuran material hazırlanarkən balans prinsipi pozulub, obyektivlik gözlənilməyib. KİV qurumunun əməkdaşları tənqid ruhlu materialda 3 obyekt haqqında kifayət qədər sərt iddialar səsləndirsələr də, qarşı tərəfin mövqeyinin öyrənilməsi və dərci üçün cəhd göstərməyiblər. "Karolina Valiant"ın təmsilçisinin mövqeyi aydın olsa da, onu qısa şəkildə, kontekstdə uyğunsuz formada təqdim ediblər. MŞ adından "yenixeber.org" saytına xəbərdarlıq edilib, qısa müddətdə qarşı tərəfin rəyini dərc etmək tövsiyə olunub.

İclasda "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" İctimai Birliyinin Bakı şəhəri Nərimanov rayonu üzrə 7 №-li filialının İdarə Heyətinin "emtv.az" saytına qarşı şikayəti də araşdırılıb. Sayt rəhbəri şikayətdə qeyd olunan iradları aradan qaldırmağa hazır olduğunu bildirib. Şikayətçi tərəf bununla razılaşıb.

Ağstafa Rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin "Xalqxeber.az" və "Dia.az" saytlarına qarşı şikayətinin müzakirəsində xəbər saytlarının təmsilçiləri bildiriblər ki, şikayət doğuran məqalə başqa KİV-ə istinadla verilib, məqalədə əks edilənlər təkzib olunmayıb. Komissiya üzvləri bildiriblər ki, KİV haqqında qanunda ilk mənbəyə istinad əsas götürülür və istinad edilərsə, hər hansı digər KİV-də yer almış materialı yayımlamaqda məsuliyyət yaranmır. Lakin KİV yayımladığı materialla bağlı araşdırma aparmalı,həqiqəti ortaya çıxarmalı, obyektivliyi təmin etməlidir.

Nəzərə alınmalıdır ki, onlayn medianın sürətli inkişafı dövründə, KİV haqqında qanunun 62-ci maddəsindən sui-istifadə halları çoxalmaqdadır. Belə ki cəmiyyətdə tanınmayan, auditoriyası məhdud olan onlayn resurslarda peşə prinsiplərindən uzaq, korporativ məqsəd daşıyan, sifarişli yazılar yerləşdirilir və sonradan həmin yazılar digər KİV-lərdə ilk mənbəyə istinadla yayılır.

Mətbuat Şurası bildirir ki, KİV-lər doğruluğu şübhə yaradan, ehtimal və fərziyələrə söykənən, qarşı tərəfin mövqeyinin əks olunmadığı materialları yayarkən yalnız istinad məsələsinə deyil, həmçinin tənqid olunan tərəfin mövqeyinin öyrənilməsinə də önəm verməlidirlər. Bu cəhət onların ictimai nüfuzu və etibarlılığı baxımından son dərəcə vacibdir. Komissiya hər iki sayta bu xüsusda tövsiyə ünvanlayıb və onları gələcək fəaliyyətlərində bu məqama xüsusi diqqət yetirməyə çağırıb.

# Erməni mediası etiraf edir



"Müharibənin davam edəcəyini bəyan edən Əliyev, danışıqlarda öz mövqeyindən geri çəkilməməsi barədə Paşinyanda təəssürat yaratmaq niyyətindədir." SİA Ermənistana məxsus tert.am saytının məlumatına istinadən xəbər verir ki, bu sözləri Ermənistan Milli Məclisinin Beynəlxalq münasibətlər üzrə daimi komitəsinin sabiq sədri Vaqram Atanesyan sözügedən sayta müsahibəsində deyib.

"Aprel döyüşlərinin üçüncü ildönümü artıq tamam oldu və Azərbaycan prezidenti İlham Əliyev dördgünlük aprel döyüşlərini Azərbaycanın uğuru hesab etdiyini bəyan etdi. Azərbaycanda daxili siyasi qarışıqlıq da ola biləcəyini istisna etmirik və Azərbaycan ordusu prezidentdən narazı ola da bilər və məncə, Əliyev bu təəssüratı dağıtmağa çalışır", - deyə Vaqram Atanesyan bildirib. Bunun müharibə hazırlığına dair bir xəbərdarlıq olub-olmadığını soruşduqda Atanesyan qeyd edib ki, Azərbaycan həmişə müharibəyə hazırlaşır və heç kim demir ki, Azərbaycan Qarabağ məsələsini güc tətbiq etməklə həll etməkdən imtina edir.

"Təbii ki, Vyanada keçirilən görüşdə tərəflərin mövqelərində fundamental dəyişikliklər baş verməyib. Yeri gəlmişkən, baş nazir Nikol Pashinyan bu müzakirələrdən danışarkən qeyd edir ki, bu görüşlərdə mövqelərin yaxınlaşması müşahidə edilməyib"-deyə o bildirib. Xarici Əlaqələr üzrə Daimi Komitənin keçmiş sədri qeyd edib ki, ritorik olaraq əsas dəyişikliklərə məruz qaldıqlarını da deyə bilməyəcək. Müdafiə naziri Davud Tonoyenin bəyanatına toxunan Vaqram Atanesyan qeyd edib ki, əgər Azərbaycan daha da güclənərsə, hadisələrin eskalasiyasına gedərsə və hərbi əməliyyatlar davam edərsə, erməni tərəfi düşmənin hücumunu məhdudlaşdıran hərəkətlərlə kifayətlənməyəcək və hərbi-siyasi situasiyaya adekvat addımlar atacaq.

***İnam Hacıyev***

# Azərbaycan filmi beynəlxalq festivala dəvət alıb

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən Gənc Sinemaçılar Klubunun üzvü Orxan Ağazadənin "Oturacaqlar" filmi Belçikada keçirilən Brüssel Qısa Film Festivalının Beynəlxalq və "Next Generation" müsabiqə mərhələlərinə dəvət alıb. Kinostudiyadan AZƏRTAC-a bildirilib ki, Brüssel şəhərində təşkil ediləcək festival aprelin 25-dən mayın 5-dək davam edəcək. Azərbaycan və İngiltərə birgə istehsalı olan ekran əsərinin ssenarisi və quruluşçu rejissoru Orxan Ağazadə, quruluşçu operatoru Cameron Vard, quruluşçu rəssamı və kostyum dizaynı Lara Zeidan, musiqisi Məməd Ansa, prodüseri Mina Salimi, koprodüserləri Azər Həsənov və Ruslan Ağazadədir. Filmdə rolları Səyyad Əliyev, Zülfiyyə Nəzər Məmmədova, İskəndər Abbasov və başqaları oynayırlar.

# Mitinqlər müxalifətin məhvini sürətləndirəcək

**Müxalifətdaxili intriqalar, qarşıdurmalar önə çıxmaq iddiaları son vaxtlar daha da geniş xarakter alıb. Bu, müxalifət partiyalarının yenidən parçalanmasına gətirib. Söhbət etdiyimiz müsahiblərimiz də daxili çəkişmələrin gərgin xarakter alması səbəbindən, düşərgədə təmsil olunan bəzi partiyaların yaxın vaxtlarda parçalanmasının qaçılmaz olduğunu bildirdilər.**

### Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Müxalif partiya sədrləri bir-birinə nifrət edirlər "



- Müxalifətin birliyi ola bilməz. Çünki, müxalif partiya sədrləri bir-birlərinə nifrət edirlər. Əgər birlik barədə danışırlarsa, ideya irəli sürürlərsə, bu, əslində, görüntü xarakteri daşıyır, əməldə fərqli mövqedədirlər. Fakt budur ki, müxalifət düşərgəsində qeyri-səmimi insanlar toplaşıb. Yəni bir-birini sevməyən, nifrət edən, əks fikirlər söyləyən, hərəkətlər edən, arxasınca danışan, biri digərini bəyənməyən bu toplumun axı nə birliyi ola bilər? Ümumiyyətlə, bu günə qədər müxalifət düşərgəsini təmsil edən şəxslər tərəfindən bir çox birliklər yaradılıb. Amma onlar tərəfindən yaradılan həmin birliklər sonda parçalanıblar. Həmin birliklərin parçalanmasının da səbəblərindən biri şəxsi ambisiyalarının olması və bir-birlərinə qarşı qeyri-səmimi olmaları ilə bağlıdır. Bir sözlə, onlar tərəfindən yaradılan formal birliklər daxili çat məsələsində üzə çıxır. Yəni belə olan halda, bir-birlərini ittiham edib parçalanırlar. Planlaşdırdıqları mitinqlərin alınmaması da, bir-birini qəbul etməmələri və cəmiyyət tərəfindən rədd edilmələridir. Düşünürəm ki, mitinqlərə həvəs göstərməklə müxalifət partiyaları parçalanaraq, tarixin arxivinə atılmaq məsələlərini daha da sürətləndirmiş olacaqlar.

### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxalifətin xarici maliyyəsi kəsilib"



- Bunların növbəti dəfə birləşmək ideyaları ortaya atılanda, demişdim ki, onların birləşmələri mümkün deyil. Başlıca səbəb də, heç bir proqrama, inkişafa meyilli hansısa plana malik olmayan, şəxsi ambisiyasını hər şeydən üstün tutan adamların bir araya gəlməsi mümkün deyil və bizim özünü müxalifət adlandıran qaragüruh da, bu baxımdan, biabırçı durumdadır. Odur ki, onların birləşmək arzusu, həmişə olduğu kimi, yenə arzu olaraq qalmalı idi və qaldı da. Xüsusilə, ölkədə bu ilin əvvəlindən başlanan sosial islahatlar, ölkə başçısının atdığı, dünyada analoqu olmayan cəsarətli addımlar, bütün xalqın bu iqtidara olan sevgisini daha da artırıb. Bunun müqabilində xalq hansı siyasi qüvvənin dalınca getməli olduğunu bir daha qətiləşdirdi. Yəni hər tərəfdən əli boşda qalan həmin qüvvələr, indi başlayıblar bir-birlərini didməyə ki, bu da gözlənilən idi. Sualınızın ikinci hissəsinə gəldikdə isə, deyə bilərəm ki, birləşməyən bir qrupun yenidən parçalanmasından danışmağa dəyməz. Bunları xaricdən və bəzi vurulmuş keçmiş məmurlardan gələn pullar bir araya yığmışdı. Ölkə başçısının atdığı addımlardan sonra, bu müxalifətin nəyəsə nail olacağına inamlarını tamamilə itirdilər və maliyyələrini kəsdilər. Pul ətrafında birləşib, pul bölənlər indi nəyi böləcəklər? Odur ki, hesab edirəm, parçalanma artıq baş verib.

**GÜLYANƏ**

# Aprel döyüşləri şanlı tariximizdir





Ağcabədi rayonu ərazisində şanlı aprel döyüşlərinə həsr olunmuş silsilə tədbirlər keçirilib. Növbəti tədbir YAP Ağcabədi rayon təşkilatının, QMƏVŞAİB Ağcabədi rayon filialı və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə 2016-cı il aprel döyüşlərində Azərbaycan Ordusunun Lələtəpə yüksəkliyinin alınmasında şəhid olmuş qəhrəmanlarımızın xatirəsinə Füzuli rayonunun Horadiz qəsəbəsində ucaldılmış abidə ziyarət olunub. Qazi və veteranlar, "N" saylı hərbi hissənin əsgər və zabitləri şəhidlərin xatirəsini ehtiramla yad edərək, abidə önünə qərənfillər düzüblər. Sonra tədbir iştirakçıları Cocuq Mərcanlı kəndinə gedərək, torpaqlarımızın müdafiəsində dayanan "N" saylı hərbi hissənin əsgər və zabitləri ilə görüş keçiriblər.

Əsgərlər qarşısında çıxış edən YAP Ağcabədi rayon təşkilatının nümayəndəsi, Qarabağ müharibəsi veteranı Mehman Novruzov Ağcabədi ictimaiyyətinin əsgərlərə salamını çatdıraraq, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusunun bu gün regionun ən güclü ordusu olduğunu, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğısından danışmışdır.

Görüşdə QMƏVŞAİB Ağcabədi filialının sədri, Qarabağ qazisi İsmayıl Məhərrəmov görüşdə çıxış edərək, gənc əsgərlərə xidmətlərində uğurlar və torpaqlarımızın azad edilməsi uğrunda yeni qələbələr arzulayıb.

Sonda qonaqlar tərəfindən gətirilmiş Azərbaycanın üçrəngli bayrağı hərbi hissəyə təqdim edilmiş, həmin bayrağın işğaldan azad olunacaq yeni ərazilərimizdə tezliklə dalğalandırmağını arzu ediblər.

Daha bir tədbir aprel döyüşlərində erməni təcavüzkarlarına qarşı döyüşdə qəhrəmancasına həlak olmuş Hindarx qəsəbə sakini Dilsuz Qarayevin xatirəsini yad etmək üçün Ağcabədi rayon icra hakimiyyətinin, YAP Ağcabədi rayon təşkilatının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağcabədi rayon şöbəsinin, QMƏVŞAİB Ağcabədi rayon şöbəsi veteranlarının, "N" saylı hərbi hissənin bir qrup şəxsi heyətinin və Hindarx qəsəbə sakinlərinin iştirakı ilə şəhid Dilsuz Qarayevin məzarı önündə keçirilib. Mərasim şəhidin ruhuna dua oxunması ilə başlanıb.

Tədbiri YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov açaraq, aprel döyüşlərinin Ermənistan ordusunun məğlubedilməzliyi barədə fikri altüst etdiyini, Azərbaycan Dövləti və Xalqının torpaq itkisi ilə barışmayacağını və ərazi bütövlüyünü bərpa edəcəyini, Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş problem olmadığını və Ali Baş Komandan İlham Əliyevin həm siyasi müstəvidə, həm də güclü ordu quruculuğu istiqamətində gördüyü mühüm işlər sayəsində itirilmiş torpaqlarımızın qaytarılmasına qadir olduğunu bildirib: "Həmin döyüşlərdə Hindarx qəsəbə sakini Dilsuz Qarayevin qəhrəmancasına şəhid olub. Düz 3 il əvvəl, aprelin 4-də Ağcabədi rayonunun 10 mindən çox sakininin iştirakı ilə biz qəhrəman Dilsuz Qarayevi son mənzilə yola saldıq. Biz Dilsuzu cismən itirsək də, o, bizim qəlbimizdə bir şəhid, bir qəhrəman kimi daim yaşayacaqdır".

Tədbirdə Ağcabədi rayon icra hakimiyyəti başçısının Hindarx qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Akif Qasımov, QMƏVŞAİB Ağcabədi rayon şöbəsinin sədri İsmayıl Məhərrəmov, "N" saylı hərbi hissənin tabor komandirinin müavini Zaur Əliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağcabədi rayon şöbəsinin rəisi Ruslan İsmayılov, "N" saylı hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini Eldəniz Daşdəmirov şəhid Dilsuz Qarayevin ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksəldiyini və onun əziz xatirəsinin heç vaxt unutmayacağı barədə öz fikirlərini bölüşüb.

Şəhid Dilsuz Qarayevin anası Cəvahir Hacıyeva çıxış edərək, vətən uğrunda şəhid olmuş oğlu Dilsuz Qarayevi unutmadıqları və onun xatirəsini daim əziz tutduqları üçün öz minnətdarlığını bildirib.

Tədbirdə Dilsuz Qarayevin vaxtilə təhsil aldığı Qaraş Əliyev adına Hindarx qəsəbə 3 saylı ümumi orta məktəbin və Xanoğlan Həsənov adına Hindarx qəsəbə 2 saylı ümumi orta məktəbin şağırdlərinin ifasında şəhidlər və vətən haqqında şeirlər ifa edilib.

Tədbir iştirakçıları, həmçinin, Hindarx qəsəbəsindəki Şəhidlər Xiyabanına gələrək, torpaqlarımızın azadlığı uğrunda mübarizədə şəhid olmuş Hindarx şəhidlərinin abidələrini ziyarət edərək, abidə önünə tər çiçək dəstələri düzüblər.

**ZÜMRÜD BAYRAMOVA**

# Xarici KİV-lər Azərbaycan hekayələrinin Fransa təqdimatından yazıb



Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği layihəsi çərçivəsində Fransada ərsəyə gətirdiyi "Azərbaycan ədəbiyyatı antologiyası" və kitabın təqdimatıyla bağlı Strasburqda keçirilmiş tədbir yerli və xarici KİV-də - Rusiyanın və Belarusun nüfuzlu portallarında geniş işıqlandırılıb. Bu barədə AZƏRTAC-a Tərcümə Mərkəzindən bildirilib.

Məlumatda deyilir: "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin, Azərbaycan ədəbiyyatının dünyada tanıdılması və təbliği çərçivəsində Fransada ərsəyə gətirdiyi "Azərbaycan Ədəbiyyatı Antologiyası" kitabının təqdimat mərasimi keçirilib. Strasburqun mərkəzi "Kleber" Kitab Evində baş tutan tədbirdə Fransanın tanınmış elm, siyasət, ədəbiyyat adamları, Avropa institutları, o cümlədən Avropa Məhkəməsinin əməkdaşları, jurnalistlər və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Fransanın "Kapaz" Nəşriyyat Evi tərəfindən nəşr edilmiş kitabda İsmayıl bəy Qutqaşınlı, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Mir Cəlal, İlyas Əfəndiyev, İsa Hüseynov, Sabir Əhmədli, İsi Məlikzadə, Yusif Səmədoğlu, Anar, Şahmar, Elçin, Mövlud Süleymanlı, Sara Oğuz, Dilsuz, Məmməd Oruc, Rafiq Tağı, Kamal Abdulla, Saday Budaqlı, Afaq Məsud, Nəriman Əbdülrəhmanlı, Etimad Başkeçid, İlqar Rəsul, Şərif Ağayar kimi Azərbaycan yazıçılarının hekayələri yer alıb".

# Ağdaban soyqırımından 27 il ötür

*Bu gün Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımından 27 il ötür. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni separatçılarının "böyük Ermənistan" yaratmaq xülyasıyla Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Ağdaban soyqırımı zamanı bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır.*



Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qaratçıları planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivi od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin qəm dastanının ən kədərli səhifəsini açıb.

Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.

İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına sığmayacaq səviyyədə soyqırımına "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsiylə Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradıldı. Komitə, qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Rayon əhalisinin ciddi təkidi ilə Kəlbəcərə göndərilən polkovnik Zaur Rzayev briqada komandiri və hərbi komendant təyin edilib. Bu tədbirlər camaatın qırılmaqda olan inamını xeyli möhkəmləndirib.

Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır.

Onu da qeyd edək ki, 1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başlayıb. Ermənilər Ağdaban kəndinə hücum edib və onu ikinci dəfə viranəyə döndəriblər.

**ZÜMRÜD**

# Qəhrəmanlıq salnaməsi

***Masallı Tarix-Diyarşünaslıq Muzeyində aprel döyüşlərinin üçüncü ildönümünə həsr olunmuş "Qəhrəmanlıq salnaməsi" adlı tədbir keçirildi. Tədbiri giriş sözü ilə muzeyin direktoru, əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva açaraq, şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad etdi.***






Ə.Tağıyeva aprel döyüşlərinin Azərbaycan dövlətinin hərbi-siyasi qüdrətini, Azərbaycan xalqının birliyi və dəyanətini, düşmən hücumlarına layiqli cavab verən hünərli igidlərimizin Vətən torpağının sahibsiz olmadığını bir daha sübut etdiyini söylədi. O bildirdi ki, 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda, ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi tarixləşdi. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da, cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi. Aprelin 4-ündə Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin, əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi və təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə, hücumu davam etdirmək planı da baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı. Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qruplarımız tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində, şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmişə bəyan edir ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarmaqdan asılıdır.

Aprel qələbələrinin cəmiyyətimiz və ordumuzda yaratdığı özünənam və ruh yüksəkliyi haqqında muzeyin elmi işçisi Həbib Ağayev mühazirə ilə çıxış etdi.

Tədbirdə aprel döyüşlərinin iştirakçısı Əziz Cankişizadə çıxış edərək, həmin günləri yaxşı xatırladığını, vətən uğrunda hər zaman canından keçməyə hazır olduğunu, aprel qələbələri ilə qürur duyduğunu söylədi.

Tədbirdə, həmçinin, Masallı rayon MƏSQVŞ sədri Məmmədağa Şiriyev, "Masallı ziyalılar" İctimai Birliyinin sədri Fətullayev Qardaş, QMƏV və ŞAİB Masallı rayon şöbəsinin sədri Nahid Rəhimov, SHXÇDX Masallı rayon şöbəsinin baş leytenantı Rəvan Nəsibov çıxış edərək, şanlı Aprel qələbələri, ölkəmizin siyasi-iqtisadi və hərbi-texniki gücü haqqında danışdılar. Bununla yanaşı, bu kimi tədbirlərin gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna rolu olduğunu söylədilər.

Şəhid anası Ziba Əsgərli, şəhid Aqil Məlikovun qardaşı Ədalət Məlikov çıxış edərək, şəhid doğmalarının keçdiyi şərəfli döyüş yolundan, şəhidlik məqamının ucalığından danışdılar.

Tədbirin sonunda xatirə şəkilləri çəkildi.

Aprel döyüşləri və birinci Qarabağ müharibəsində həyatını itirmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ümid edirik ki, şəhidlərimizin qanı yerdə qalmayacaq və üçrəngli bayrağımız tezliklə Şuşa, Xocalı, Laçın və digər işğal altındakı torpaqlarımızda dalğalanacaqdır.

***Əlihüseyn Şükürov,***
*Masallıda çıxan həftəlik "Yeni həyat" qəzetinin baş redaktoru*

# İlqar Məmmədov "liderləri" ittiham etdi

## Müxalifətin mitinqlərinə "yox" cavabının səbəbləri



"Milli Şura"nın 6 aprel mitinqinə "yox" cavabı verildi. Bu xəbəri alan "Milli Şura" dərhal aprelin 20-nə aksiya təyin edib. Nədir müxalifətin azarı? "REAL" partiyasının sədri İlqar Məmmədov müxalifətçiləri tənqid edərək, sosial şəbəkədə qeyd edib ki, 8 aydır ona qarşı təbliğat aparılır: "Deyirdim sizə, gedək seçkiyə, görək, insanları səslərin müdafiəsinə səfərbər edə bilirikmi? Dediniz ki, yox e, biz meydanlardan birbaşa hakimiyyətə gələcəyik. 8 aydır mənə qarşı vicdansız təbliğat apardınız ki, biz inqilab eləmək istəyirik, İlqar Məmmədov imkan vermir. Yaxşı, "inqilab-inqilab" deyirdiniz, 4 dəfə mitinqə qoyulan qadağa həmin o inqilabınızı haçana qədər ertələdi?"

### Ambisiyalar hikkəni üstələyəndə...

Siyasətçinin ən önəmli məcazlarından biri səhvlərdən nəticə çıxarmaq, həmin səhvləri təkrarlamamaq bacarığıdır. Əgər siyasətçi səhvləri sıralayırsa və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diqtəsini başa düşməməyin, marazm həddinə yüksəlmiş ambisiyalarla natamamlıq kompleksinin göstəricisidir. Ancaq təəssüf doğuran odur ki, bunu dağıdıcı düşərgə "liderləri" hələ də anlamır və anlamadıqları üçün də keçirdikləri mitinqlər iflasla nəticələnir. Bu gün isə, bu biabırçı uğursuzluqdan sonra, eyni zamanda meydana 1000 nəfəri belə toplaya bilməyən, uğursuzluğun səbəbini "interneti kəsmişdilər"dən tutmuş, "mitinqə gələnləri Bakıya girişdə tuturdular" kimi yalanlarla ört-basdır etməyə çalışan AXCP sədri Əli Kərimlinin zavallı açıqlamaları, psevdoalim Cəmil Həsənli isə az qala burlesk bəyanatları ilə gündəmdədir.

Məhz elə bu səbəbdən də, AXCP və Müsavatın birgə mitinq keçirməsi mümkün olmur. Çünki adıçəkilən şəxslərin hər biri özünü müxalifətin şəksiz "lideri" sayır.

İş o yerə çatıb ki, onlar bir-birlərini ən ağır ifadələrlə təhqir etməyi siyasi fəaliyyətin rutinliyi saymağa başlayıblar.

### İlqar Məmmədov: "Ən böyük dəstəyin xalq olduğunu unudan riyakar Əli Kərimli rəhbərlik etdiyi partiyadan yalnız biznes kimi yararlanır"

Nəhayət ki, dağıdıcı müxalifət funksionerləri özləri etiraf etməyə məcbur oldular ki, onların "liderləri" cəmiyyətə heç bir faydalı təklif verə bilmirlər. "REAL"-ın sədri İ.Məmmədov aprel ayının 6-na AXCP-"Milli Şura"-nın, aprelin 7-də Müsavat partiyasının keçirmək istədiyi, ancaq baş tutmayan mitinqi ilə bağlı məsələyə münasibət bildirərkən onu da bildirib ki istər AXCP-"Milli Şura", istərsə də Müsavatın ildə-ayda bir dəfə keçirilən mitinqlərə iştirakçı cəlb edə bilməsi müşkül işə çevrilib: "Çünki artıq funksionerlər illərdir ki, təmsil etdiyi partiyadan ancaq alver məqsədi ilə yararlanan, xarici anti-Azərbaycan dairələrdən ianələr alan Ə.Kərimli və onun yedəyinə çevrilmiş "Milli Şura" kimi qurumun işə yaramadığının fərqindədir. Ən böyük dəstəyin xalq olduğunu unudan bu satqın və riyakar "liderlər" rəhbərlik etdikləri partiyalardan yalnız biznes kimi yararlanırlar".

Düz sözə nə deyəsən? Azərbaycan ictimaiyyəti və xalq artıq Ə.Kərimlinin mitinq keçirmək təşəbbüslərindən bezibdir. "REAL" sədrinin sözlərinə görə, Ə.Kərimli və Arif Hacılının mitinq keçirməkdə məqsədi ancaq qrant əldə etməkdir: "Baxın, ölkədə mitinq keçirməyə ehtiyac varmı? Deyir "aşığın sözü qurtaranda, yarım-yarım deyir". Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə mövcud problemlərin həlli, ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi islahatlar həyata keçirilir. Görünür, Ə.Kərimli də bunları görmür. Kor tutduğunu buraxmadığı kimi, onlar da öz mənfur niyyətlərindən, arzularından əl çəkmək istəmirlər. Bu gün bizi təhqir edənlər bir müddət sonra bir-birilərini təhqir edəcəklər".

Təhqir olunmaları ilə bağlı məsələyə də aydınlıq gətirən "REAL" sədri xatırladıb ki, əgər bu gün, əsas olaraq, AXCP-dən ibarət olan "Milli Şura" və oradakı söyüş qrupları təhqir yolu ilə siyasət aparmaqda davam edəcəklərsə, axırda özləri də bir-birlərini təhqir etməyə başlayacaqlar. "Sizi inandırıram ki, bu gün bizi təhqir edənlər bir müddət sonra bir-birilərini təhqir edəcəklər".

**R.HÜSEYNOVA**

# Qaragüruh müxalifət hələ də küçə təfəkküründədir

## Mitinqlər, küçə yürüşləri Əli Kərimli və Arif Hacılı üçün gəlir mənbəyinə çevrilib



***Son günlər milli və dövlətçilik maraqlarını satmaqla əldə etdikləri qrantlar hesabına xaricdə mülklər alan, övladlarını müxtəlif ölkələrin təhsil ocaqlarında oxutduran Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri bir qədər fəallaşıblar. Populist açıqlamalar, bəyanatlar verməyə daha çox meyil göstərən bu ünsürlər mitinqlər keçirməyə və bununla da, xarici ağalarının diqqət mərkəzinə çevrilməyə cəhdlər göstərirlər. Halbuki bu məxluqlar aksiyaların onların istək və arzularına uyğun baş tutmadığını başa düşür və dərk edirlər ki, cəmiyyət onları qəbul etmir, bu səbəbdən də mitinqlər iflasa uğrayır. Siyasi analitiklər isə, bu fikirdədir ki, aksiyaların hansı rüsvayçılıqla nəticələnməsinə baxmayaraq, bu, müxalif başbilənlərini narahat etmir. Deməк olmaz ki, müxalifət liderləri acı talelərі ilə barışırlar. Düşündükləri ancaq maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrə öz yaramaz fəaliyyətlərini nümayiş etdirməkdir.***

### Tay axtarıb, elə öz tayını tapar

"Turan" TV, "Meydan" TV "Azərbaycan saatı" kimi təbliğat maşınları bu mənəviyyatsızlar üçün xəyanət tribunası rolunu oynamaqla, çirkin fəaliyyətlərini təbliğ edirlər. Erməni lobbisi ilə illərdən bəri əməkdaşlıq edən, Leyla və Arif Yunuslar, Xədicə İsmayıl, Ələkrəm Hümmətov, Qənimət Zahid, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Azər Kazımzadə, Emin Milli və digərləri də dağıdıcı xislətli müxaliflərə şər və böhtan kampaniyasının aparılmasında öz xislətlərinə uyğun dəstək nümayiş etdirirlər. Azərbaycanın iqtisadi inkişafına, diplomatik uğurlarına qara yaxan və xaricdə mühacir həyatı yaşayan "söyüş qrupu" saxtakarlığa üstünlük verərək gerçəyi gizlədir, özlərini demokratiya tərəfdarları kimi təqdim etməyə cəhdlər göstərirlər. Reallıqda isə mühacir həyatı yaşadıqları, əslində isə, sığındıqları Avropa ölkələrində belə qəbul olunmayan, yalnız Azərbaycana qarşı qara piarlarda vasitə kimi istifadə edilən bu satqınların yaşadığı yer elə çirkinliklərinin təqdim olunduğu iaşə obyektləri, avtobus dayanaqcaqları və tualetlərdir. Necə deyərlər, mikrob elə murdar yerdə qol-qanad açar. Bu baxımdan, onların Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri ilə eyni fərqə malik olmalarından təəccüblənməyə dəyməz. Yəni tay axtarıb, elə öz tayını tapar.

### Mənəviyyatsızdan əxlaq gözləməyə dəyməz

Bir sözlə, qısaca onu demək olar ki, çirkin siyasət aparan müxalif partiya sədrləri xaricdəki vətənsiz şivənlərlə fəaliyyətlərini uzlaşdırırlar. Qaragüruh müxalif başbilənləri xaricdəki "söyüş qurupu"na Azərbaycana qarşı antitəbliğat kampaniyası aparmağın istiqamətlərini çatdırırsa, qarşı tərəf də, əvəzində, onlara erməni pərəst dairələrlə necə əlaqə qurmağın yollarını göstərir. Xüsusilə də, Ə.Kərimli xarici işbazların qucağında oturmaq üçün dəridən-qabıqdan çıxır. Çünki özünü reklam etmək üçün gah mitinqlər keçirməyə, gah da sosial şəbəkələrdə şər və böhtan kampaniyası aparmaqda fəallıq göstərməyə çalışır. Məhz bu cür anormal mövqeyinə görə, cəmiyyətin hiddət və qəzəbinə düçar olur. Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub: "Ə.Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz Qərbə satılmağa köklənib. Ə.Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların və qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır".

**İ.ƏLİYEV**

# Gömrükçülər narkotik vasitə aşkarlayıb

Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin "Biləsuvar" gömrük postunda İrandan piyada gələn Azərbaycan vətəndaşı saxlanılıb və şifahi sorğu-sual edilib. Sorğu-sual zamanı vətəndaş üzərində qanunla qadağan olunan hər hansı predmetin, o cümlədən narkotik vasitə və ya psixotrop maddələrin olmadığını bildirib. Lakin onun hərəkətləri gömrükçülərdə şübhə yaratdığından üzərində şəxsi yoxlama aparılıb. Daxili orqanında narkotik vasitə gizlətdiyi ehtimal edilən vətəndaş Biləsuvar Mərkəzi Rayon Xəstəxanasına aparılıb və rentgen müayinə-



sindən keçirilib. Müayinə zamanı onun düz bağırsağında gömrük nəzarətindən gizlədilən 3 ədəd bükümdə, ümumilikdə 206 qram narkotik vasitə - heroin aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Ermənistan "Metsamor" AES üçün aldığı krediti Rusiyaya qaytara bilmir!

Ermənistan Rusiyaya "Metsamor" Atom Elektrik Stansiyasının müasirləşdirilməsi üçün ayırdığı krediti vəsait olmadığına görə qaytara bilmir. "Report" RİA "Novosti"yə istinadən xəbər verir ki, bunu Ermənistanın energetika və təbii sərvətlər nazirliyinin beynəlxalq əlaqələr üzrə idarəsinin rəisi Tiqran Melkonyan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 19-ci iclasında deyib. Tiqran Melkonyan kreditin ödəmə vaxtının təxirə salınmasını istəyib.



" "Metsamor" AES-in istismar müddətinin uzadılması layihəsinin reallaşdırılması işlərinin yubanması ilə bağlı məsələni qaldırmaq istəyirəm. Biz, bir neçə həm obyektiv, həm də subyektiv səbəblər aşkarlamışıq. Layihənin uğurla başa çatması üçün kreditin qüvvədə olma müddətinin uzadılması barədə qərar qəbul etmək lazımdır. Hələlik kredit üzrə illik ödənişlərin yeganə mənbəyi "Metsamor" AES-in elektrik enerjisinin satışından əldə edilən vəsaitdir", - deyə Melkonyan qeyd edib.

# Beynəlxalq Ombudsmanlar İnstitutları

***Azərbaycan İnsan Haqları Müvəkkilliyi (Ombudsman) Beynəlxalq Ombudsmanlar İnstitutları ilə sıx əməkdaşlıq edir. Müvəkkil 2003-cü ildən üzv olduğu Avropa Ombudsmanlar İnstitutu ilə sıx əməkdaşlıq əlaqələri qurmuş, mütəmadi olaraq, bu qurumun tədbirlərində iştirak etmiş və insan hüquqlarının bir çox sahələrində qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır. Müvəkkil tərəfindən respublikamızda keçirilən beynəlxalq tədbirlərdə Avropa Ombudsmanlar İnstitutunun bir çox üzvü dəvət olunaraq iştirak etmişdir.***

Müvəkkilin fəaliyyətini əks etdirən məruzələri və press-relizləri, mütəmadi olaraq, Avropa Ombudsmanlar İnstitutunun ünvanına göndərilmiş və bu sənədlərin bir çoxu qurumun rəsmi saytında yerləşdirilmişdir.

30 mart - 3 aprel 2005-ci il tarixdə Kopenhagen şəhərində Danimarka Ombudsman İnstitutunun təşəbbüsü ilə silsilə tədbirlər keçirilmişdir. Tədbirlər çərçivəsində "Demokratik institutların təsis olunması və onlara yardım" mövzusunda seminar, Avropa Ombudsmanlarının IX Dəyirmi Masası və Simpozium keçirilmişdir.

Tədbirin açılış mərasimində Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Alvaro Hil-Robles, Avropa Ombudsmanı Nikiforos Diamanduros iştirak etmişlər. Danimarka kralı Frederik və Danimarka Parlamentinin spikeri Kristian Meydane də tədbirə qatılmış, Ombudsmanları salamlamış, onlara uğurlar arzulamışlar.

Silsilə tədbirlərdə 40-dək Avropa ölkəsinin, o cümlədən İsveç, Norveç, Belçika, Finlandiya, Fransa, İspaniya, Polsa, Avstriya, Macarıstan, Almaniya, Yunanıstan, Baltikyanı ölkələrdən Estoniya, Litva, Latviyanın, MDB məkanından isə Azərbaycan, Rusiya Federasiyası, Ukrayna, Moldova və Gürcüstanın Ombudsmanları, həmçinin, Danimarka dövlətinin maliyyəsindən ibarət olan və Avropa Şurası tərəfindən legitimləşdirilmiş Avropa Ombudsmanlar İnstitutunun öz sıralarına beynəlxalq hüququn heç bir subyekti tərəfindən tanınmayan "Dağlıq Qarabağ Respublikası"nın qondarma bir qurumunu üzv kimi qəbul etməsi beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə saymazyana münasibət kimi qiymətləndirmişdir.

Qeyd olunmalıdır ki, AOİ-nin Rotterdamda keçirilmiş növbəti iclasında adıçəkilən məsələnin müzakirəsinin nəticəsi olaraq, "DQR", həmçinin başqa tanınmış qurumların Ombudsmanlarının AOİ-yə institusional üzv kimi seçilməsinin mümkünlüyünün araşdırılması məqsədilə AOİ idarə heyətinin üzvlərindən ibarət Komissiya yaradılmışdır və araşdırılma aparılmışdır. AOİ idarə heyəti üzvlərinin təkidi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili də Komissiyaya daxil edilmişdir. Bu istiqamətdən görülən işlər nəticəsində, "DQR separatçı rejimin Ombudsmanı" AOİ-nin institusional üzvlüyündən çıxarılmışdır.

Avropa Ombudsmanlar İnstitutunun (AOİ) üzvü olan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili E.Süleymanova 23-24 sentyabr 2001-ci il tarixlərində Serbiyanın Novi Sad şəhərində bu qurumun ümumi yığıncağında iştirak etmişdir.

Yığıncaqda Florensiyada 4 oktyabr 2009-cu il tarixdə keçirilmiş ümumi yığıncağın Protokolu təsdiq edilmiş, təşkilatın Nizamnaməsinin 7-ci və 20-ci paraqraflarına müvafiq düzəlişlərin edilməsi ilə bağlı təkliflərə baxılmış, qurumun Prezidentinin, Baş katibinin hesabatları dinlənilmiş, Prezident, 2 vitse-prezident, Şuranın digər üzvləri, həmçinin, iki auditor seçilmiş və digər məsələlər müzakirə edilmişdir.

Yığıncaqda Azərbaycan Ombudsmanı da çıxış etmişdir. E.Süleymanova çıxışında iştirakçılara ölkəmizdə qəbul edilmiş "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu əsasında Ombudsman Təsisatının yaradılması, Müvəkkilin Mandatı, fəaliyyəti, regional mərkəzləri haqqında geniş məlumat vermişdir. O, "Ombudsman haqqında" Konstitusiya Qanununa Müvəkkilin milli preventiv mexanizm kmi fəaliyyətinin tənzimlənməsi, eyni zamanda, "İnformasiya əldə etmək haqqınla" Azərbaycan Respublikası Qanununun tələblərinə nəzarətin həyata keçirilməsi üzrə əlavə və dəyişikliklər edildiyini bildirmişdir.

Müvəkkil qeyd edilən məsələlərin hər birinin mühüm əhəmiyyət kəsb etdiyini və gələcək əməkdaşlığın mühüm sahələri olduğunu qeyd etmişdir. O, həmçinin, BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyasında nəzərdə tutulmuş müstəqil monitorinq mexanizmi funksiyalarının da Ombudsmana həvalə edildiyini diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilən, müxtəlif əhali qruplarının hüquqlarının müdafiəsini ehtiva edən İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı (MFP) ölkə yurisdiksiyasında olan insanların hüquqlarının daha səmərəli müdafiəsi naminə dövlət qurumları, vətəndaş cəmiyyəti, ictimai təşkilatlar, universitetlər, hüquq klinikaları, icmalar və KİV arasında əməkdaşlığın qurulması, möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müvəkkil bir sıra yeni təşəbbüslərin çıxış etdiyini vurğulamışdır. Ombudsmanın ixtisaslaşmış müşavirlərinin fəaliyyətinin, paralel hesabatların, Universal Dövri İcmal (ÜDİ) üzrə rəsmi hesabatın hazırlanmasının, uşaq hüquqları üzrə ixtisaslaşmış məruzənin tərtib edilməsinin, ictimai dinləmələrin təşkilinin, orta məktəblərdə uşaq hüquqları üzrə pilləli tədris layihəsinin həyata keçirilməsinin, həmçinin, amnistiya və əfv ilə bağlı müraciətlərin, alternativ cəza metodlarının tətbiqi üzrə təkliflərin və s. bu qəbildən olduğunu diqqətə çatdırmışdır.

E.Süleymanova çıxışında milli və beynəlxalq səviyyələrdə bir sıra çətinliklərin olduğunu da vurğulamışdır. ÜDİ layihələrini müzakirə edib, hu təsisatların fəaliyyətinin əsas prinsiplərini qəbul etmişlər.

6-13 fevral 2010-cu il larixdə adı çəkilən layihə çərçivəsində Aparatın iki əməkdaşı Tailandın paytaxtı Banqkok şəhərində təşkil edilmiş treninq-seminarda iştirak etmişlər. Onlar fikir və təcrübə mübadiləsi apararaq, Asiya Ombudsmanlar Assosiasiyasının üzvü olan Müvəkkilin İnsan Hüquqlarının Müdafiəsi və həmin edilməsi sahəsində çoxşaxəli fəaliyyəti, milli insan hüquqları təsisatları ilə səmərəli əməkdaşlığı barədə iştirakçılara ətraflı məlumat vermişlər.

Tədbir zamanı işçi qruplarında müzakirələr təşkil olunmuş, insan hüquqları sahəsində araşdırmaların müsahibələrin aparılma qaydaları və planları iştirakçıların nəzərinə çatdırılmışdır. Aparatın əməkdaşları işçi qruplarında müzakirələrdə fəal iştiraklarına görə sertifikatla təltif olunmuşlar.

Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) təşkilatçılığı və Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə 6-14 mart tarixən həmin assosiasiyanın və üzv-təsisatların fəaliyyətinin gücləndirilməsinə yönəlmiş RETA layihəsinin davamı olaraq, Filippin Respublikasının paytaxtı Manila şəhərində növbəli təcrübə mübadiləsi keçirilmişdir.

Tədbirə bir sıra ölkələrin, o cümlədən Pakistan, Hindistan və Filippinin milli insan hüquqları təsisatlarının nümayəndələri, tanınmış hüquq mütəxəssisləri qatılmışlar. Bu tədbirdə Aparatı Hüquqi maarifləndirmə, elmi - analitik, informasiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri və Protokol sektorunun əməkdaşı ilə təmsil etmişlər.

Tədbirdə korrupsiyanın ölkələrin iqtisadi və sosial-inkişafına mənfi təsiri, eyni zamanda, korrupsiyaya qarşı mübarizə prosesini dövlət, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin cəlb edilməsi ilə bağlı məsələlər geniş müzakirə olunmuş və bu sahədə iştirakçı dövlətlərin təcrübəsi diqqətə çatdırılmışdır.

İştirakçılar təcrübə mübadiləsi çərçivəsində Filippinin Ombudsman Aparatında, Veteranların Administrasiya Ofisində, Gömrük İdarəsində, Rüşvət Əleyhinə Məhkəmədə, Parlamentin Nümayəndələr Palatasında, həmçinin, orta ümumtəhsil məktəbində olmuş, bu qurumların strukturu, iş prinsipləri və fəaliyyəti ilə tanış olmuşlar.

Filippin Respublikası Təhsil Nazirliyinin xətti ilə orta ümumtəhsil məktəblərinin birində keçirilən görüş zamanı Müvəkkilin insan hüquqlarının tədrisi və hüquqi maarifləndirmə sahəsində fəaliyyəti, o cümlədən, Müvəkkilin təşəbbüsü ilə məktəblərdə uşaq hüquqları üzrə pilləli tədrisin həyata keçirildiyini iştirakçıların nəzərinə çatdırılmışdır.

2-14 mart 2010-cu il tarixində Aparatın əməkdaşı Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) təşkilatçılığı və Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə həmin assosiasiyanın və üzv-təsisatların fəaliyyətinin gücləndirilməsinə yönəlmiş RETA layihəsi çərçivəsində, Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində Azərbaycan və Qırğızıstan Respublikalarının Ombudsman təsisatları nümayəndələrinin iştirakı ilə növbəti təcrübə mübadiləsində iştirak etmişdir.

Təcrübə müddətində adıçəkilən təsisatın müraciətlərin qəbulu, qeydiyyatı, ərizələrlə bağlı araşdırmaların aparılması, onların implementasiyası, regional ofislərlə qarşılıqlı fəaliyyəti ilə bağlı iş prinsipləri geniş müzakirə olunmuş, fikir və məlumat mübadiləsi aparılmışdır.

Tədbirin sonunda təcrübə mübadiləsinin yekunu ilə ədə edilən nəticələr və əməkdaşlığın gələcək perspeklivləri müzakirə olunmuş, iştirakçılar öz təklif və tövsiyələrini bildirmişlər. 24-25 noyabr 2015-ci il tarixdə Pakistan İslam Respublikasının İslamabad şəhərində Asiya Ombusmanlar Assosiasiyasının "Ombudsman fəaliyyətinin problemləri" mövzusunda 14-cü Konfransı və Direktorlar Şurasının iclası keçiriləcəkdir.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 6 aprel

## Napoleonun taxtı hərraca çıxarılıb



Fransada imperator Napoleonun taxtı hərraca çıxarılıb. Hərrac aprelin 7-də 1814-cü ilin baharında taxtdan imtina edən imperatorun öz qvardiyası ilə vidalaşdığı fransız monarxlarının tarixi iqamətgahında - "Fontainebleau" sarayında keçiriləcək.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, imperator kürsüsünə 80 min avro start qiyməti qoyulub. Napoleon dövrünün əntiq əşyaları yüksək qiymətləndirilir. Bundan başqa, avqust ayında Napoleon Bonapartın (1769-1821) Korsikada anadan olmasının 250-ci ildönümü tamam olacaq.

İndiyədək belə hesab edilirdi ki, Napoleonun 5 taxtı mövcud olub. Onlardan biri "Tuileries" sarayında, digəri imperatorun sevimli iqamətgahı - "Saint-Cloud" sarayında, üçüncüsü Senatda, dördüncü Qanunverici Korpusda (indiki Milli Məclis), beşincisi isə Paris meriyasının binasındadır.

Satışa çıxarılan kürsü isə imperatorun altıncı taxdıdır. Lotun tarixi sənədləşdirilib. Onun XIX əsrin sonlarında amerikalı filantrop Maykl Henri de Yanq tərəfindən San-Fransisko şəhərinin Təsviri İncəsənət Muzeyinə hədiyyə edildiyi iddia olunur. "Ekspertlərimiz həmin lotu 6 ay ərzində tədqiq ediblər və onun Napoleona aid olmasına heç bir şübhəmiz qalmayıb", - deyə "Osenat" satış evinin əntiq əşyalar şöbəsinin kuratoru Jan-Kristof Şatenye "Liberation" qəzetinə müsahibəsində bildirib.

## Turistləri 2020-ci ildən Komodo adasına buraxmayacaqlar




İndoneziyanın yerli hakimiyyət orqanları varanların oğurluq hallarının artması səbəbindən 2020-ci ilin yanvarından başlayaraq Milli Komodo Parkını turistlərin üzünə bağlamaq qərarına gəlib.

AZƏRTAC "Daily Mail" qəzetinə istinadla xəbər verir ki, brakonyerlər tərəfindən oğurlanan varanların hər biri 35,5 min dollara satılır. Parkın bağlanması barədə qərar qaçaqmalçıların Cənub-Şərqi Asiya ölkələrinə 41 komodo varanı satmaq cəhdindən sonra qəbul edilib.

Komodo parkına turist səfərlərinin qadağan olunması adada varanların qorunması və onların populyasiyasının artması üçün şərait yaratmağa imkan verəcək. Yerli hakimiyyət adanın nəinki faunasını, həm də florasını qorumaq məqsədi ilə təbiəti mühafizə tədbirlərini də gücləndirib. Yırtıcı komodo varanı hazırda yaşayan kərtənkələlər arasında ən irisidir. Bir dəfəyə 80 kiloqram ət yeyə bilən sürünənlərin uzunluğu 3 metrdən artıq, çəkisi isə 150 kiloqrama qədər ola bilir.

## Roberto Mançini yeni mükafata layiq görülüb

Futbol üzrə İtaliya millisinin baş məşqçisi Roberto Mançini yeni mükafata layiq görülüb. SİA-nın məlumatına görə, bu barədə İtaliya Futbol Federasiyasının rəsmi saytı xəbər yayıb. Bildirilir ki, Mançini 2011-ci ildən bəri təsis olunan və ilin ən yaxşı məşqçisinə təqdim edilən Enso Bearzota adına mükafatın sahibi olub. Qeyd edək ki, İtaliyada 2018-ci ilin ən yaxşı məşqçisi adına Atalanta-nın çalışdırıcısı Can Pyero Qasperini və Milanın baş məşqçisi Cennaro Qattuzo da namizəd idi.

**ELAN**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əhmədzadə Əhməd Əlvan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Mixael Şumaxerin oğlu: "Bakıda Formula 2 sükanı arxasına qayıtmağımı gözləyirəm"




"Ferrari" Yürüş Akademiyasının pilotu və əfsanəvi Mixael Şumaxerin oğlu Mik Şumaxer Bəhreyndəki testlərlə bağlı işindən aldığı təəssüratları bölüşüb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Mik, həmçinin indi diqqətini bütünlüklə Formula 2 seriyasının yenidən başlanmasına cəmləşdirdiyini bəyan edib: "Testlərin iki gününü müqayisə etmək çətindir. Biz yaxşı iş nümayiş etdirdik və bundan məmnun qala bilərik. Məqsədimizə nail olmağımız bizə əminlik verir.

Bundan sonra nə olacağını bilmirəm. Mən Bakıda Formula 2 sükanı arxasına qayıtmağımı gözləyirəm. Bu, mənim ilk dəfə çıxış edəcəyim xüsusi bir trasdır. Mən buna çox yaxşı hazırlaşmalıyam, simulyatorda bir qədər işləməliyəm. Çalışacağam ki, testlər zamanı aldığım təcrübədən istifadə edim". Xatırladaq ki, Mik Şumaxer Bəhreyndə iki gün ərzində testlərdə işləyib. O, testlərin birinci günü "Ferrari"nin, ikinci günü isə "Alfa Romeo"nun sükanı arxasında olub.

## Maradona Trampı tənqid etdiyinə görə cəzalanacaq



Meksika Futbol Federasiyası I Divizionda çıxış edən "Dorados"un baş məşqçisi Dieqo Maradonaya qarşı intizam işi açıb. Sportinfo.az xəbər verir ki, səbəb 59 yaşlı mütəxəssisin Venesuela Prezidenti Nikolas Maduro və ABŞ rəhbərliyi barədə səsləndirdiyi fikirlərdi. Argentinalı canlı əfsanə XII turda "Tampiko Madero" ilə görüşdə qazandıqları 3:2 hesablı qələbəni N.Maduro və Venesuelada əziyyət çəkən insanlara həsr etdiyini söyləyib. O, həmçinin ABŞ Prezidenti Donald Trampın davranışlarından narazı olduğunu ifadə edərək, müxalifət lideri, bəzi ölkələrin Venesuelanın dövlət başçısı kimi tanıdığı Xuan Quaydonu "kukla" adlandırıb.

## Poqbanın "Mançester Yunayted"dən tələbi nədir?




"Mançester Yunayted"in yarımmüdafiəçisi Pol Poqba komandada qala bilər. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, fransalı futbolçunun bunun üçün bəzi tələbləri var. "Real"ın maraq dairəsində olan Poqbaya hazırki klubu yeni müqavilə təklif edib. "Qırmızı şeytanlar" onun 2021-ci ilə qədər olan sözləşməsini daha 3 il uzatmaq niyyətindədir. Poqba isə bunun üçün həftəlik 349 min avroluq maaşının 583 minə yüksəldilməsini istəyib. Əks təqdirdə, futbolçu "Real"ın təklifini qəbul edə bilər. Qeyd edək ki, "Real" Pol Poqbanın keçidi üçün ingilislərə 150 milyon avro ödəməyə hazırdır.

## Abramoviç "Çelsi"ni satır?



"Çelsi"nin prezidenti Bryus Bak rusiyalı iş adamı Roman Abramoviçin sahibi olduğu klubu satacağı haqda xəbərlərə münasibət bildirib. Qol.az-ın məlumatına görə, "The Sun"a açıqlamasında o deyib ki, Abramoviçin kluba bağlı biridir: "Biz onunla hər gün bir neçə dəfə danışırıq. O, bizimlə futbolçuları, kommersiya və digər məsələləri müzakirə edir. Bütün bunlar isə onun komandanın yanında olduğunu göstərir".

Qeyd edək ki, daha əvvəl Abramoviçin Britaniya vizasını uzatması ilə bağlı problem yaranıb. Bu səbəbdən "Çelsi"nin yeni stadionunun tikintisi dayandırılıb. Bundan başqa, bu yaxınlarda bəlli olub ki, "Çelsi"nin sahibi son 10 ildə ilk dəfə komandanın ev oyunlarını keçirdiyi "Stemford Bridj" arenasında özünə loja almayıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**